# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 45 (1390), 30 oktyabr - 5 noyabr 2018-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*


“Futbol oyunları və digər idman tədbirləri zamanı təhlükəsizlik, mühafizə və xidmət məsələlərinə vahid yanaşma haqqında Avropa Şurası Konvensiyası”nın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının

## Q a n u n u

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

1. 2016-cı il 3 iyul tarixində Sen-Deni şəhərində imzalanmış “Futbol oyunları və digər idman tədbirləri zamanı təhlükəsizlik, mühafizə və xidmət məsələlərinə vahid yanaşma haqqında Avropa Şurası Konvensiyası” Azərbaycan Respublikasının müvafiq bəyanatı ilə (bəyanatın mətni əlavə olunur) təsdiq edilsin.

2. “İdman tədbirləri, o cümlədən futbol oyunları zamanı zorakılığın və xuliqanlığın qarşısının alınması haqqında” Avropa Konvensiyasına qoşulmaq barədə” Azərbaycan Respublikasının 1999-cu il 28 oktyabr tarixli 732-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, H 11, maddə 616) ləğv edilsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 1 oktyabr 2018-ci il.***

# Milli Olimpiya Komitəsində yeniyetmə idmançılarla görüş olub

Oktyabrın 25-də Milli Olimpiya Komitəsinin (MOK) inzibati binasında Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında ölkəmizi təmsil edən komandanın təbliğatı üçün “Zəfər günləri” adlı tədbir keçirilib. Tədbirdə Milli Olimpiya Komitəsinin vitse-prezidentləri Çingiz Hüseynzadə, Xəzər İsayev, MOK-un baş katibinin müavini Azər Əliyev, Gənclər və İdman Nazirliyinin idman şöbəsinin müdiri Fərid Mansurov və idman federasiyalarının nümayəndələri iştirak ediblər.

*(ardı 2-ci səhifədə)*




# Azərbaycan güləşçisi Budapeştdə dünya çempionu tituluna yiyələnib

Macarıstanın paytaxtı Budapeştdə güləş üzrə dünya çempionatı keçirilib. Yarışlara oktyabrın 19-da start verilib və 28-də başa çatıb.

Ölkəmizi dünya çempionatında sərbəst, qadın və yunan-Roma güləşi üzrə yığmamızın üzvləri təmsil ediblər. İdmançılarımız yarışları ümumilikdə, 5 medalla başa vurublar. Yunan-Roma təmsilçimiz Eldəniz Əzizli karyerasında ilk dəfə dünya çempionu titulunu qazanıb. Avropa çempionu Eldəniz Əzizli mübarizənin ilk mərhələsində yerli idmançıya qalib gəlib. Həmyerlimiz çinli rəqibini də ilk hissədə mübarizədən kənarlaşdırıb. Böyük əzmkarlıqla uğurlu çıxışını davam etdirən Eldəniz yaponiyalı güləşçini də vaxtından əvvəl üstələyərək adını yarımfinala yazdırıb. Bu mərhələdə o, gürcüstanlı rəqibini mübarizədən kənarlaşdırıb. Beləliklə, finalda Qırğızıstan güləşçisinə də öz gücünü göstərən Eldəniz Əzizli dünya çempionu olub.



*(ardı 4-cü səhifədə)*

# *Ölkəmiz gələn il gimnastika üzrə dörd mötəbər yarışa ev sahibliyi edəcək*

Azərbaycan Gimnastika Federasiyası (AGF) 2019-cu ildə Bakıda təşkil olunacaq gimnastika növləri üzrə beynəlxalq yarışların təqvim planını təqdim edib.

2019-cu ildə federasiya yenidən beynəlxalq yarışlara fevralın 16-17-də batut gimnastikası üzrə dünya kuboku yarışları ilə start verəcək. Bir ay sonra isə meydança idman gimnastlarının ixtiyarına veriləcək. Yəni martın 14-17-də Bakı artıq 4-cü dəfə idman gimnastikası üzrə dünya kuboku yarışlarına ev sahibliyi edəcək. Aprel və may ayları isə bədii gimnastların çıxışları ilə yadda qalacaq. Belə ki, aprelin 26-28-də bədii gimnastika üzrə dünya kuboku, bir neçə həftə sonra - mayın 17-19-da isə Avropa çempionatı keçiriləcək.

Gələn il AGF ilk dəfə olaraq gimnastikanın iki növü üzrə Avropa çempionatına ev sahibliyi edəcək. Belə ki, bədii gimnastların ardınca, mayın 24-26-da qitənin ən güclü aerobika gimnastları paytaxtımızda toplaşacaqlar.

İyulun 20-28-də ölkəmizdə ilk dəfə olaraq Avropa Yeniyetmələrinin Olimpiya Festivalı keçiriləcək. Bu festival çərçivəsində baş tutacaq idman gimnastikası üzrə yarışlar da məhz Milli Gimnastika Arenasında keçiriləcək.

İlin nəzərdə tutulan son yarışı bədii gimnastika üzrə dünya çempionatı olacaq. Paytaxt Bakı şəhəri 14 ildən sonra yenidən dünya birinciliyinə ev sahibliyi edəcək.

Paytaxtımızda keçirilən hər üç dünya kuboku yarışları, eləcə də, dünya çempionatı Tokio-2020 Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyacaq.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*“Uşaq və gənclərin fiziki və mənəvi inkişafı”*

## *Gənc nəslin sağlamlığı, həm də qüdrətli, sağlam dövlətin təminatıdır*

**Səh. 5**

## Olimpizm

### Tomas Bax dünya çempionatında yarışları izləyib



Macarıstanda keçirilən güləş üzrə dünya çempionatı çərçivəsində Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Baxa kitab hədiyyə edilib.

Kitabı BOK prezidentinə Dünya Güləş Federasiyasının “İdman hamı üçün” Komissiyasının sədri Georgiy Bryusov hədiyyə edib. “Döyüşdən döyüşə” adlanan kitab 2013-cü ildə güləşin Olimpiya proqramından çıxarılması təhlükəsi ilə üzləşdiyi bir dövrü əhatə edir.

Xatırladaq ki, Tomas Bax güləş üzrə dünya çempionatında yarışları ilk dəfə izləyir. BOK prezidenti yunan-Roma güləşi üzrə 59 kq çəki dərəcəsində qaliblərin mükafatlandırma mərasimində də iştirak edib.

### Birgə bəyannamə imzalandı

Beynəlxalq Olimpiya Komitəsi (BOK) və Rusiya Olimpiya Komitəsi (ROK) dopinq məsələsində qarşılıqlı anlaşma barədə bəyannamə imzalayıblar. Bu barədə ROK-un prezidenti Stanislav Pozdnyakov məlumat verib.

Bugünlərdə Moskvada BOK Olimpiya Həmrəyliyi Komissiyası, ROK və Asiya Olimpiya Şurası (AOŞ) birgə razılıq bəyannaməsi qəbul ediblər. Bəyannamənin imzalanmasında BOK Olimpiya Həmrəyliyi Komissiyasının prezidenti, AOŞ-nın Olimpiya həmrəyliyi Şurasının sədri şeyx Ahməd əl-Sabah, AOŞ-nın direktoru Hüseyn əl-Müsəlləm və BOK-un baş direktorunun müavini Pere Miro iştirak ediblər.

Rusiya idmançılarına göstərdiyi dəstəyə görə minnətdarlığını bildirən Stanislav Pozdnyakov deyib: “Razılaşma əsasında bir neçə birgə layihə həyata keçiriləcək. Onlardan biri də 1 İyun-Uşaqları Müdafiə Günündə gənc olimpiyaçıların forumunu təşkil etməkdir”.

## Anons


Qitə birinciliyi komandamız üçün uğurla yekunlaşıb — Səh. 2
*Milli komandanın üzvləri ilə iclas keçirilib* — Səh. 2
Badmintonçularımızdan Misirdə uğurlu nəticə — Səh. 2
Qadın sablyaçılarımız dünya kubokuna hazırlaşırlar — Səh. 2
21 medal uğrunda mübarizənin qalibləri müəyyənləşdi — Səh. 6
*Poliatlon çoxnövçülüyü üzrə yarışın qalibləri müəyyənləşib* — Səh. 6
*“Flaqman” qalib gələrək çempionluq yolunda mühüm addım atdı* — Səh. 7
UEFA Çempionlar Liqasının üçüncü turuna yekun vurulub — Səh. 7
*Böyükhesablı məğlubiyyət baş məşqçinin qovulması ilə nəticələndi* — Səh. 7


## “Böyük dəbilqə” turnirində üç medal

Oktyabrın 29-da Əbu-Dabidə keçirilən cüdo üzrə “Böyük dəbilqə” turnirinə yekun vurulub. Azərbaycan millisi turniri 1 gümüş və 2 bürünc medalla başa vurub. Reytinq xarakterli turnirdə 100 kiloqram çəki dərəcəsində mübarizə aparan Elmar Qasımov özbəkistanlı Aklmurodbek Xudoyberdıevə, Rusiya təmsilçisi Ashad Kostoevə və Portuqaliya idmançısı Xorxe Fonsekə qalib gələrək finala yüksəlib. Həlledici görüşdə israilli cüdoçu Peter Palçikə məğlub olan E.Qasımov gümüş medalla kifayətlənib.

Millimizin üzvləri Məmmədəli Mehdiyev (90 kq) və İrina Kindzerskaya (78 kq-dan yuxarı) nüfuzlu turnirdə bürünc medal qazanıblar.

Qeyd edək ki, turnirdə 64 ölkədən 400-dək cüdoçu birincilik uğrunda mübarizə aparıb.

# “Zəfər Günləri”

# BUENOS-AYRES-2018

# Milli Olimpiya Komitəsində yeniyetmə idmançılarla görüş olub

(əvvəli 1-ci səhifədə)

Əvvəlcə Argentinanın paytaxtı Buenos-Ayresdə keçirilmiş Yeniyetmələrin III Yay Olimpiya Oyunlarından bəhs edən videoçarx nümayiş olunub.

Tədbirdə çıxış edən MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə ölkəmizdə idmana göstərilən dövlət qayğısından danışıb və atletlərimizin beynəlxalq arenada çıxışını yüksək qiymətləndirib. O, qeyd edib ki, medal qazana bilməyən digər idmançılarımız da əzmkarlıqla mübarizə apardılar.



“Biz bu gün növbəti “Zəfər günləri” tədbirinə toplaşmışıq. Yada salmaq istəyirəm ki, “Zəfər günləri” ilk dəfə 2015-ci ildə Bakıda təşkil olunan I Avropa Oyunlarından başladı. Adətən, biz burada toplaşaraq Oyunların qalib və mükafatçılarını təbrik edirdik. Rio-2016 Olimpiadasında və paytaxtımızda təşkil olunan IV İslam Həmrəyliyi Oyunlarında da biz bu ənənəni davam etdirdik. Biz Buenos-Ayres-2018-dən sonra da “Zəfər günləri”ni davam etdirmək qərarına gəldik. Əvvəlki “Zəfər günləri”ndən fərqli olaraq budəfəki tədbirə biz təkcə qalib idmançıları deyil, Buenos-Ayresdə Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında iştirak edən bütün idmançıları dəvət etmişik. Mən hesab edirəm ki, bu Oyunlarda iştirak edən bütün idmançılarımız qalibdirlər. Bu Oyunlara vəsiqə qazanmaq özü bir qalibiyyətdir. Biz təkcə fəxri kürsüdə yer alan idmançılarımızın deyil, həmçinin medal qazana bilməyən atletlərimizin də nə qədər səylə yarışdıqlarının şahidi olduq. Bizim stolüstü tennis komandamız qarışıq yarışlarda çox gözəl oyun nümayiş etdirdi. Mən həmin Oyunları izləyirdim. Təəssüf ki, onlar güclü rəqiblərlə mübarizədə məğlub olaraq yarımfinala çıxa bilmədilər. Bizim atletlərimiz də Oyunlarda ən yaxşı nəticələrini göstərdilər. Bilirsiniz ki, Olimpiya Hərəkatının əsas prinsipi iştirakdır. İdmançılarımızın bu Oyunlarda iştirak etməsi bizim üçün çox böyük fəxrdir. Mən bir məsələni də qeyd etmək istəyirəm ki, komandamızın əldə etdiyi 7 medalın hamısı ayrı-ayrı idman növlərindəndir. Yəni bu təkcə 7 medal deyil, 7 idman növündə qazanılan medallardır. Bu özü Azərbaycan komandasının böyük uğurudur. Həqiqətən də biz son 20 ilə nəzər salsaq görərik ki, Azərbaycan idmanı nə qədər inkişaf edib, nə qədər irəli gedib.

Mən gimnastımızın qazandığı medalı xüsusilə, qeyd etmək istəyirəm. Gimnastımız Yelizaveta Luzan qarışıq komandanın tərkibində qızıl medal qazandı. Bu da kifayət qədər böyük nəticədir. Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyevaya təşəkkürümü bildirirəm. Azərbaycanda son illərdə idmanın inkişaf etməsində I Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunlarının böyük təsiri olmuşdu. Bildiyiniz kimi, hər iki Oyunlarda Təşkilat Komitəsinə rəhbərliyi məhz Mehriban xanım etmişdi. Mən bir daha bu qələbələr münasibəti ilə bütün idmanseverləri təbrik edirəm”, - deyə Çingiz Hüseynzadə bildirib.

Sonra Buenos-Ayres-2018-də iştirak edən idmançılarımıza Olimpiya diplomları təqdim olunub.

Komandamızın Olimpiadadakı çıxışından bəhs edən videoçarxın nümayişindən sonra Buenos-Ayres-2018-in fəxri kürsüsündə yer alan idmançılara Olimpiya diplomu və xüsusi mükafat verilib.

Qeyd edək ki, 17 idmançı ilə Buenos-Ayresə yollanan milli komandamız 2-si qızıl, 1-i gümüş və 3-ü bürünc olmaqla, 6 medal qazanıb. Qızıl medalları Azərbaycanın aktivinə cüdoçu Vüqar Talıbov (66 kq) və sərbəst güləşçi Turan Bayramov (65 kq) yazdırıblar. Ağırlıqqaldırma yarışında çıxış edən Tərmenxan Babayev (85 kq) olimpiadanın gümüş medalına sahib olub. Bürünc medallara isə taekvondoçu Cavad Ağayev (63 kq), boksçu Nurlan Səfərov (60 kq) və güləşçi Şahanə Nəzərova (43 kq) layiq görülüblər. Bədii gimnastımız Yelizaveta Luzanın Olimpiadada qarışıq komandanın tərkibində qazandığı qızıl medal millimizin aktivinə yazılmayıb. Beynəlxalq Olimpiya Komitəsinin qərarına əsasən, onun medalı ümumi sıralamada komandamızın hesabında göstərilməyib. Beləliklə, Azərbaycan milli komandası olimpiadanın medal sıralamasında 33-34-cü yerləri bölüşüb.

Tədbirdən sonra Buenos-Ayres-2018-də medal qazanan idmançılarımız, onların məşqçiləri və federasiya nümayəndələri “Olimpiya dünyası” qəzeti ilə fikirlərini bölüşüblər.

**Vüqar Talıbov (Yeniyetmələrin III Yay Olimpiya Oyunlarının qızıl mükafatçısı):**

- Yeniyetmələrin III Yay Olimpiya Oyunlarının qalibi olmaq həqiqətən də qürurverici bir hissdir. Final görüşü başa çatdıqdan sonra 10 dəqiqə özümə gələ bilmədim. Nə baş verdiyini anlamırdım. O hissləri sözlə ifadə etmək çox çətin idi. Bu medal mənim məsuliyyətimi ikiqat artırır. Çalışacağam ki, bundan sonra da üzərimə düşən vəzifəni yaxşı dərk edim, beynəlxalq arenalarda bayrağımızı yüksəklərə qaldıraraq himnimizi səsləndirim. Nümayəndə heyətimiz bizi Argentinada çox dəstəklədi. Yarışdan sonra da bizim yanımıza gələrək ürək sözlərini dedilər. Bizə göstərdikləri dəstəyə görə hər kəsə minnətdarlığımı bildirirəm.

**Turan Bayramov (Yeniyetmələrin III Yay Olimpiya Oyunlarının qızıl mükafatçısı):**

- Bu il mənim üçün çox uğurlu ildir. Çünki dünya və Avropa çempionu adına məhz 2018-ci ildə layiq görülmüşəm. Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında çempion olmasam, mənə pis təsir edərdi. Çox sevincliyəm. Sevinirəm ki, 6 ay ərzində çəkdiyim əziyyət hədər getmədi. Dövlətimizə minnətdaram ki, bizim üçün bu cür gözəl şərait yaradıb. Məhz ölkə rəhbərliyinin diqqət və qayğısı sayəsində mən və mənim həmyaşıdlarım mötəbər yarışlarda uğurla çıxış edir, vətənə medallarla qayıdırlar. Ən böyük arzum Tokio-2020 Olimpiadasında uğur qazanmaqdır. İstəyirəm ki, həmyerlim Toğrul Əsgərovun nailiyyətini təkrarlayım. Olimpiya çempionumuz London-2012-də çıxış edəndə cəmi 19 yaşı var idi.




**Yelizaveta Luzan (Yeniyetmələrin III Yay Olimpiya Oyunlarının qızıl mükafatçısı):**

- Olimpiya Oyunlarında çıxış etmək böyük məsuliyyət tələb edir. Çox sevinirəm ki, mənə göstərilən etimadı doğrulda bildim və yeniyetmələrdən ibarət Azərbaycan Olimpiya komandasınım üzvü kimi vətənə qızıl medalla qayıtdım. Əməyimdə payı olan hər kəsə-Azərbaycan Milli Olimpiya Komitəsinə, Gənclər və İdman Nazirliyinə, Gimnastika Federasiyasına təşəkkürümü bildirirəm.




**Tərmenxan Babayev (Yeniyetmələrin III Yay Olimpiya Oyunlarının gümüş mükafatçısı):**

- Yarışlara çox yaxşı hazırlaşmışdıq. Buenos-Ayres-2018-ə hazırlığımızı Şüvəlan qəsəbəsində yerləşən Ağır Atletika Akademiyasında keçmişdik. Hər bir idmançı kimi mən də bu oyunlara qızıl medal qazanmaq üçün yollanmışdım. Lakin gümüş medalla kifayətləndim. Sonuncu yanaşmamda bir qədər zəif təsir bağışladım. Bu da məni qızıl medaldan məhrum etdi. Fikrimcə İtaliyadakı yarışda göstərdiyim nəticəni təkrarlaya bilsəydim komandamıza qızıl medal qazandıra bilərdim. İtaliyada birdənqaldırmada 145 kq, təkanla qaldırmada isə 180 kq çəkini qaldırmışdım. Argentinada isə birdənqaldırmada 142, təkanla qaldırmada 174 kq çəkini ram etdim. Bu nəticə də ikinci olmağıma kifayət etdi. Bu nəticə həm çəki salmağım və Cənubi Amerikanın mühitinə uyğunlaşmağımla bağlı oldu. Lakin bu mənim üçün böyük uğurdur. Demək olar ki, bu medal karyeram ərzində qazandığım medalların zirvəsində dayanır. Qarşıda bizi Türkmənistanda keçiriləcək dünya çempionatı gözləyir. Bu yarış Tokio Olimpiadasına lisenziya xalı verir. Çalışacağam ki, bu yarışda da medal qazanım və lisenziya xalı toplayım. Mənim növbəti əsas hədəfim böyüklər arasında Olimpiya Oyunlarının qalibi olmaqdır. Bunun üçün isə hələ çox çalışmaq lazımdır.

**Cavad Ağayev (Yeniyetmələrin III Yay Olimpiya Oyunlarının bürünc mükafatçısı):**

- Görüşlərimiz həqiqətən də çox çətin keçdi. Əbəs yerə demirlər ki, Olimpiya Oyunları digər yarışlardan fərqlənir. Burada sözün əsl mənasında çox güclü idmançılar mübarizə apardılar. İlk rəqibim afrikalı idmançı idi. Onu asanlıqla məğlub etdim. Növbəti mərhələdə iranlı taekvondoçunu 9:8 hesabı ilə üstələdim. Koreyalı idmançı ilə görüşdə son saniyələrdə qələbəni əldən verdim. Bürünc medal qazanmaq da mənim üçün böyük nəticədir. Bu qələbə məni daha da ruhlandırdı. Üzərimdə əziyyəti olan bütün məşqçilərimə minnətdarlığımı bildirirəm. Bizi dəstəkləyən hər kəsə təşəkkür edirəm. Çalışacağam ki, qalibiyyət zəfərini növbəti yarışlarda da davam etdirim, ölkəmizə medallarla qayıdım.

**Şahanə Nəzərova (Yeniyetmələrin III Yay Olimpiya Oyunlarının bürünc mükafatçısı):**

- Hamı mənim olimpiadadan qızıl medalla qayıdacağımı gözləyirdi. Mən özüm də buna inanırdım və yarışlara məsuliyyətlə və çox ciddi hazırlaşmışdım. Amma güclü qrupa düşmüşdüm və bu da istər-istəməz qızıl medala gedən yolda maneçilik yaratdı. Etiraf edim ki, səhvlərim də oldu. Dünya çempionu olan ABŞ idmançısı ilə görüşdə bəzi nöqsanlara yol verdim. Amma təəssüflənmirəm. Çünki vətənə medalsız qayıtmadım. Qarşıdakı yarışlarda daha məsuliyyətlə və səhvsiz çıxış etməyə çalışacağam.

**Nurlan Səfərov (Yeniyetmələrin III Yay Olimpiya Oyunlarının bürünc mükafatçısı):**

- Belə bir mötəbər yarışda mükafatçılar sırasında yer almağın özü çox böyük şərəfdir. Buenos-Ayres sınağına qədər böyük və gərgin məşqlər etmişdim. Əsas məqsədim yarışları qalib kimi başa vurmaq idi. Lakin bu imkanı əldən verdim. Görünür hələ çox məşq edib, təcrübə toplamalıyam. Bunun üçün illər keçməlidir. Lakin inanıram ki, bu arzuma böyüklərin Olimpiya oyunlarında çatacağam.

(ardı 3-cü səhifədə)

# “Zəfər Günləri”

# BUENOS-AYRES-2018

## Milli Olimpiya Komitəsində yeniyetmə idmançılarla görüş olub

(əvvəli 2-ci səhifədə)



**Niyaməddin Paşayev (Azərbaycan Taekvondo Federasiyasının vitse-prezidenti):**

- Əvvəlcə yarışlarda medal qazanan bütün idmançılarımızı təbrik edirəm. Bu həqiqətən də möhtəşəm zəfərdir. İdmançılarımız bu yarışlardan Vətənə medallarla qayıtdılar. Sevindirici haldır ki, onların arasında taekvondoçumuz Cavad Ağayev də var. Bildiyiniz kimi, Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında ölkəmizi taekvonda yarışlarında Cavad Ağayev və Minayə Əkbərova təmsil edirdi. Oyunlara qədər idmançılarımız bir sıra yarışlarda və təlim-məşq toplanışlarında iştirak etmişdilər. Federasiya tərəfindən onlara hərtərəfli şərait yaradılmışdı. Cavad Ağayevin əldə etdiyi bürünc medalı komandamız üçün yüksək qiymətləndirirəm. Qeyd edim ki, bundan əvvəl 2014-cü ildə Nankində təşkil olunan Yeniyetmələrin II Yay Olimpiya Oyunlarında Azərbaycan taekvondoçuları bir qızıl və bir gümüş medal əldə etmişdilər. Qızıl medalı komandamıza Səid Quliyev, gümüş medalı isə Cerən Özbək qazandırmışdı. Düzdür bu dəfə komandamız qızıl medal qazana bilmədi. Lakin hər iki idmançımız sona qədər mübarizə apardılar. Bu əzmkarlıqlarına görə onları təbrik edirəm. Bu oyunlarda iştirak etməyin özü bir qəhrəmanlıqdır.

**Ramiz Ramizzadə (Cüdo üzrə yeniyetmələrdən ibarət yığma komandanın baş məşqçisi):**

- Buenos-Ayresə yollanmazdan əvvəl də bildirmişdim ki, biz bu Oyunlara yalnız qızıl medal üçün yollanırıq. Düzdür, heç vaxt proqnoz verməyi sevməsəm də, bu dəfə əminliklə bildirdim ki, 70-80 faiz Buenos-Ayresdən qızıl medalla qayıdacağıq. Allah bizə bu sevinci yaşatdı. Təbii ki, komandamızın gücünə bələd idim. Yarışları və rəqibləri yaxşı təhlil etmişdik. Qızıl medal uğrunda ən çətin görüş Dominikan idmançısı ilə oldu. Bu rəqibi məğlub etdikdən sonra Vüqar finalda sonuncu Avropa çempionu ilə qarşılaşdı. Final görüşündən əvvəl üç saatlıq fasilə oldu. Biz həmin vaxtı fikir mübadiləsi apardıq, rəqibin hansı komponentlərdə üstün və zəif cəhətlərini aşkar etməyə çalışdıq. Elə oldu ki, Vüqar həlledici görüşdə ona verilən tapşırıqlara düzgün şəkildə riayət edərək, sərbəst şəkildə rəqibini məğlub etdi.

Digər idmançımız Vüsalə Kərimova da gözəl çıxış etdi. İlk görüşdə rəqibinə təmiz qələbə ilə qalib gəlsə də, növbəti mərhələdə sonuncu Avropa çempionuna məğlub oldu. O, ilk təsəlliverici görüşündə qalib gəlsə də, növbəti mərhələdə Kosovo idmançısına məğlub olaraq mübarizəni dayandırdı. Demək olar ki, başa-baş mübarizə idi. Lakin son saniyələrdə bir səhv idmançımızın məğlubiyyəti ilə yekunlaşdı. Lakin onu da qeyd edim ki, bu yarışdan bir gün sonra Vüsalə Kərimova komanda yarışlarında həmin idmançını məğlub etdi. Görünür qismət belə imiş. Əgər Vüsalə fərdi yarışlarda həmin idmançıya qalib gəlsə idi, komandamızın bürünc medal qazanmaq şansı böyük olardı. Bununla belə qazanılan bir qızıl medalı da komandamız üçün yüksək uğur kimi qiymətləndirmək olar. Bu o deməkdir ki, Azərbaycan Cüdo Federasiyası yeniyetmələrlə işi yüksək səviyyədə qurub. Yeniyetmə cüdoçularımızın inkişafı üçün hər cür şərait yaradılıb. Cüdoçularımız da bu qayğıdan yararlanaraq ölkəmizə medallarla qayıdırlar. Fürsətdən istifadə edib, bizə yaradılan şəraitə görə Azərbaycan Cüdo Federasiyasına minnətdarlığımı bildirirəm.

**Mariana Vasileva (Bədii gimnastika üzrə yığmanın baş məşqçisi):**

- Yelizaveta Luzan ona olan etimadımızı doğrultdu. İndi onun keçid dövrüdür. Bu uğurdan sonra məşqçi heyəti gimnastımızın üzərində daha məsuliyyətli işləyəcək. Luzan da öz üzərində məsuliyyətli işləməyə borcludur. Yelizaveta artıq böyüklər yaş kateqoriyasında yarışacağı üçün məşq proqramı da təbii olaraq, dəyişəcək. İlk məşqlərə mart ayından start verəcəyik.

İdmançımızın qarşısında duran əsas məqsəd onun yığmanın heyətinə qəbul edilməsidir. Yığmada dörd yeri tutmaq üçün Yelizaveta Luzan digər 5 idmançı ilə mübarizə aparmalı olacaq. Əməksevərlik hər zaman qalib gəlir və onun bu mübarizədə qalib gələcəyinə inanıram. Çünki o, çox zəhmətkeş qızdır. Düşünürəm ki, onun qızıl medal qazanması digər uşaq və yeniyetmə idmançılar üçün stimuldur.

**Məmməd Abdullayev (Taekvondo üzrə yeniyetmələrdən ibarət yığma komandanın baş məşqçisi):**

- Belə bir mötəbər yarışda medal qazanmaq bizim üçün sevindirici bir haldır. Hər komanda Argentinaya qızıl medal qazanmaq üçün yollanmışdı. Eləcə də biz. Lakin komandamız bu Oyunlarda bir bürünc medalla kifayətləndi. Əsas odur ki, Buenos-Ayres-2018-in taekvondo yarışlarında Azərbaycan idmançısı fəxri kürsüdə qərarlaşdı. Hər iki idmançımızın çıxışından razı qaldım. Onlar medal qazanmaq üçün bütün gücünü ortaya qoyub mübarizə apardılar. Ardıcıl ikinci dəfədir ki, taekvondoçularımız Yeniyetmələrin Yay Olimpiya Oyunlarında medal qazanırlar. Bu da Azərbaycan Taekvondo Federasiyasının yeniyetmə və gənclər sahəsində işləri düzgün istiqamətdə qurmasının göstəricisidir. İnanıram ki, buraya toplaşan yeniyetmə idmançıların hər biri, eləcə də Cavad Ağayev və Minayə Əkbərova böyüklər arasında gələcəyin Olimpiya, dünya və Avropa çempionları olacaqlar. Onların hər birində bu potensial və istək var. Fikrimcə elə əsas da bu şərtdir. Potensial və istək olduqdan sonra ən yüksək zirvəni belə fəth etmək mümkündür.

**Asif Məmmədov (Ağırlıqqaldırma üzrə yeniyetmələrdən ibarət yığma komandanın baş məşqçisi):**

- Komandamız bu Oyunlara çox ciddi hazırlaşmışdı. Düzdür yarışa çempionluq üçün yollansaq da gümüş medalla kifayətləndik. Lakin gümüş medalı da komandamız üçün yüksək qiymətləndirirəm. Mən bütün çıxışlarımda qeyd etmişəm ki, ağırlıqqaldırma yarışlarında hər zaman böyük rəqabət olur. Bu yarış da belə idi. Medal qazanmaq şansımız yüksək idi. Yarışın gedişatı da elə bunu göstərirdi. Lakin sonda italiyalı idmançı Tərmənxan Babayevi qabaqlayaraq qızıl medal qazandı. Həm Tərmənxan Babayevin, həm də Lalə Rzazadənin çıxışından razı qaldım. Lalə bu yarışda 6-cı yeri tutsa da medal qazanmaq üçün çox əziyyət çəkdi. Lakin alınmadı. İnanıram ki, o buna görə ruhdan düşməyəcək və növbəti yarışlardan ölkəmizə medalla qayıdacaq. Buenos-Ayres-2018-də medal qazanan bütün idmançılarımızı təbrik edir, onlara gələcək yarışlarda müvəffəqiyyətlər arzulayıram.

**Rahim Məhərrəmov (Olimpiya komandasının həkimi):**

- Bu il ölkəmizi Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında komandanın həkimi kimi təmsil etməkdən qürur duyuram. Azərbaycan Cüdo Federasiyasının həkimi kimi indiyədək beynəlxalq yarışlarda çox olsam da, öz möhtəşəmliyi diqqət çəkən və milyonların sevimli idman tədbiri olan Olimpiya Oyunlarında ilk dəfə idi ki, iştirak edirdim. Yarışlardan zəngin təəssüratlarla ayrıldıq. Dünyanın 205 ölkəsindən olan insanların dostluq mühitində keçirilən şəraitində 12 gün bir arada olmasından məmnunluq duydum. Dünyanın müxtəlif ölkələrindən olimpiadaya təşrif buyurmuş həmkarlarla ünsiyyətdə olmaq və onların təcrübəsindən yararlanmaq da xoşdur.

Yarışların Argentinada təşkili müəyyən mənada yeniyetmə idmançılarımızın psixoloji durumuna da öz təsirini göstərirdi. Çünki aradakı 7 saat fərqi özünü istər-istəməz büruzə verirdi. Lakin buna baxmayaraq atletlərimiz yarışlarda 7 medal qazandılar və olimpiadanı zədəsiz başa vurdular. Əldə olunan nailiyyətlər dövlətimizin, xalqımızın, federasiyaların, ümumiyyətlə, bütün komandanın uğurudur. Azərbaycan Milli Olimpiya Komitəsinə, Gənclər və İdman Nazirliyinə minnətdarlığımı bildirir və gənclərimizə gələcək yarışlarda uğurlar arzulayıram.

## Xəzər İsayev: “Komandamızın üzvləri III Yay Olimpiya Oyunlarında yüksək nəticə əldə etdilər”

Azərbaycan Olimpiya komandası oktyabrın 6-dan 18-dək Argentinanın paytaxtı Buenos-Ayresdə keçirilən Yeniyetmələrin III Yay Olimpiya Oyunlarından vətənə uğurlu nəticələrlə dönüb. Argentinaya yollanan 17 idmançımızdan 2-si qızıl, 1-i gümüş, 3-ü bürünc medal qazanıb. Yekunda Azərbaycan komandası medal əyarına görə 208 ölkə arasında 34-cü, medal sayında isə 38-ci yeri tutub. Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti, Dövlət Gömrük Komitəsi İdman Sağlamlıq Mərkəzinin baş direktoru Xəzər İsayev “Olimpiya dünyası” qəzetinə təmsilçilərimizin Olimpiya Oyunlarındakı çıxışı barədə müsahibə verib.



***- Xəzər müəllim, Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında idmançılarımızın çıxışlarını necə qiymətləndirdiniz?***

- Bildiyiniz kimi, dörd ildən bir keçirilən Olimpiya Oyunları dünyanın ən möhtəşəm idman tədbiridir. Yeniyetmələr arasında Olimpiya Oyunlarının keçirilməsi isə xüsusilə böyük maraqla qarşılanır və sevilir. Sevindirici haldır ki, Buenos-Ayresdə keçirilən Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında Azərbaycan idmançıları 2 qızıl, 1 gümüş, 3 bürünc medal qazanaraq uğurlu nəticələr əldə etdilər. İnanıram ki, azarkeşlər təmsilçilərimizin çıxışlarını böyük maraqla və fəxarət hissi ilə izlədilər. Komandamızın 7 idman növü üzrə medal qazanması yüksək nailiyyətdir. Düzdür, əvvəlki illərlə müqayisədə, nəticə bir qədər aşağı ola bilər. Xatırladım ki, Azərbaycan idmançıları Sinqapur-2010 olimpiadasında 5 qızıl, 3 gümüş, Nankin-2014-də 5 qızıl, 6 gümüş, 1 bürünc medal qazanmışdılar. Budəfəki olimpiadada idmançılarımızın sayı az idi və demək olar ki, komandamızın üzvləri yüksək nəticə əldə etdilər. Güləş üzrə yarışlarda nəticəmiz uğurlu oldu. Bu növ üzrə mübarizə aparan hər iki idmançımız medal qazandı. Cüdo üzrə yarışlarda cəmi bir idmançımız iştirak edirdi və bir qızıl medal qazanıldı. Gimnastımız Yelizaveta Luzan qarışıq yığmaların tərkibində qızıl medal əldə etdi. Ağırlıqqaldırma idman növündə də nəticə uğurlu oldu. Eləcə də, taekvondo və boks üzrə idmançılarımız da onlara bəslənilən ümidləri doğrultdular. Əldə olunan uğurlar ölkəmizdə idmana dövlət səviyyəsində göstərilən diqqət və qayğını, Azərbaycanın idman ölkəsi olduğunu, federasiyaların uğurlu və məqsədyönlü fəaliyyətini bir daha nümayiş etdirir.

***- Peşəkar mütəxəssis kimi, necə düşünürsünüz, yeniyetmə idmançılarımızın uğurlarının davamlı olması, böyüklər arasında keçirilən mötəbər yarışlarda, Olimpiya Oyunlarında uğurlu nəticə əldə etmələri üçün nələrə diqqət yetirilməlidir?***

- Bildiyiniz kimi, böyük idmana gedən yol uşaq idmanından başlayır. Demək olar ki, böyüklər arasında Olimpiya Oyunlarına gedən yol da, məhz Yeniyetmələrin Olimpiya Oyunlarından keçir. Yeniyetmə idmanında əsaslı bünövrə qoyularsa, bu, gələcəkdə mötəbər yarışlarda qələbə əzmi ilə mübarizə aparmağımıza şərait yaradar. Buenos-Ayresdə iştirak edən və nailiyyət qazanan idmançılarımızdan gələcəkdə yüksək nəticələr gözləyirik. Onlar hələ ki gəncdirlər. Daha da yüksək uğurlar qazanmaq potensialındadırlar. Bu məsələdə federasiyaların, xüsusilə məşqçilərin üzərinə böyük məsuliyyət düşür. Yeniyetmə idmançıların çəkilərini dəyişməməli, psixoloji hazırlığı, arxayınçılığa yol verməmələri daha da püxtələşərək böyüklərdən ibarət yığma komandanın tərkibində yer almaları üçün düzgün yanaşma və hazırlıq planı olmalıdır. Bu idmançıların gələcəkdə yüksək nailiyyət qazanmaları üçün onları qorumalıyıq.

***- Xəzər müəllim, idmançılarımız qarşıda daha bir sınaq-Tokio Yay Olimpiya Oyunları gözləyir. Komandalarımızın Olimpiya Oyunlarına hazırlığı necə gedir?***

- Düşünürəm ki, Tokio-2020 rəqabət baxımından ən çətin Olimpiya Oyunlarından biri olacaq. Bunu nəzərə alaraq federasiyalar Oyunlara hazırlığa ciddi yanaşmalı, çatışmayan cəhətləri aradan qaldırmalıdırlar. Demək olar ki, Oyunlara bir il yarım vaxt var. Qarşıda idmançıları lisenziya yarışları gözləyir. Düşünürəm ki, ənənəvi idman növlərində təmsilçilərimiz onlara bəslənilən ümidləri doğruldaraq Olimpiadaya lisenziya qazanacaqlar. Məsələn, boks, taekvondo, güləş, cüdo və s. kimi növlərdə idmançılarımız uğur qazana bilərlər. Buna qədər isə təmsilçilərimiz Avropa və dünya çempionatlarında mövqelərini yüksəltməlidirlər. Məhz bu yarışlarda əldə olunacaq nəticələr əsasında komandamızın Olimpiadaya hazırlığı barədə fikir yürütmək mümkündür.

*Aysel Sultanova*

# Qitə birinciliyi komandamız üçün uğurla yekunlaşıb




Oktyabrın 20-27-də Polşanın Zamots şəhərində yaşı 20 və 23-ə qədər olan gənclər arasında ağırlıqqaldırma üzrə Avropa birinciliyi keçirilib. 35 ölkədən 383 atletin mübarizə apardığı turnirdə Azərbaycan yığma komandasının üzvləri də iştirak ediblər. Komandamız ümumilikdə 5 medal - 1 böyük, 4 kiçik medal qazanıb. Paşa İbrahimli yaşı 23-ə qədər olan gənclərin 69 kq çəki dərəcəsindəki mübarizəsində körpücük üzərinə çıxıb. O, birdənqaldırma hərəkətində 136 kq-ı ram edərək 4-cü olub. Atletimiz təkanla qaldırma hərəkətində 165 kq-ı başı üzərinə qaldıraraq bu hərəkətdə Avropa birinciliyinin gümüş medalına layiq görülüb. İki hərəkətin cəmində 301 kq (136 kq +165 kq) nəticə ilə Paşa İbrahimli yekun sıralamada 4-cü yeri tutub. Səbinə Əzimova yaşı 20-yə qədər olan qızların 53 kq çəki dərəcəsində körpücük üzərinə çıxıb. Yeniyetmələr arasında Avropa birinciliklərinin üçqat qalibi olan atletimiz gənclər arasında müvafiq yarışda medal qazanmağa çalışıb. Səbinə birdənqaldırma hərəkətində 76 kq-ı ram edərək bu hərəkətdə 7-ci yeri tutub. O, təkanla qaldırma hərəkətində daha yaxşı çıxış edərək fəxri kürsüyə yüksəlməyi bacarıb. Gənc atletimiz 100 kq-ı başı üzərinə qaldıraraq bu hərəkətdə Avropa birinciliyinin gümüş medalına sahib çıxıb. Bu, onun üçün tarixi bir nəticə olub. Ümumilikdə, 176 kq (76 kq +100 kq) nəticə ilə Səbinə Əzimova yekun sıralamada 4-cü yerə çıxıb. Məhəmməd Məmmədli isə yaşı 23-ə qədər olan gənclərin 62 kq çəki dərəcəsində mübarizə aparıb və tarixi uğura imza atıb. Atletimiz birdənqaldırma hərəkətində 121 kq-ı ram edərək bu hərəkətdə gümüş medala layiq görülüb. Məhəmməd təkanla qaldırma hərəkətində 150 kq-ı qaldıraraq bu hərəkətdə qızıl medala sahib çıxıb. Məhəmməd Məmmədli ümumilikdə 271 kq (121 kq + 150 kq) nəticə ilə yekun sıralamada da Avropa birinciliyinin qalibi adını qazanıb. Buna qədər eyni uğura yalnız iki atletimiz - Firudin Quliyev və Anastasiya İbrahimli 2015-ci ildə Litvanın Klaypeda şəhərində keçirilən yaşı 20 və 23-ə qədər olan gənclər arasında ağırlıqqaldırma üzrə Avropa birinciliyində imza atmışdı. 2013-cü ildə Klaypeda şəhərində keçirilən yeniyetmələr arasında Avropa birinciliyində birdənqaldırma və toplamda gümüş, təkanla qaldırmada qızıl, gənclər arasında isə Albaniyanın Dürres şəhərində keçirilən Avropa birinciliyində təkanla qaldırmada bürünc qazanan Məhəmməd Məmmədli, karyerasının ən böyük uğuruna imza atıb.

# Azərbaycan güləşçisi Budapeştdə dünya çempionu tituluna yiyələnib

(əvvəli 1-ci səhifədə)

Sərbəst güləşçilərimizdən yalnız Cəbrayıl Həsənov (79 kq) medal qazanıb. Yarışlara 1/8 finaldan qoşulan Cəbrayıl Həsənov Puerto-Riko, Belarus və İran güləşçilərinə qalib gələrək finala vəsiqə qazanıb.



Finalda amerikalı güləşçi Kayl Duqlas Deykə 0:2 hesabı ilə uduzan Cəbrayıl Həsənov dünya çempionatının gümüş medalla başa vurub. 3 qat dünya və 2 qat Avropa çempionu Hacı Əliyev isə zədə üzündən mundialı mükafatsız başa vurub.

Qadın güləşçilərin yarışında isə iki təmsilçimiz fərqlənib. Qadınlardan ibarət yığmamızın kapitanı Mariya Stadnik 1/8 finalda isveçli rəqibinə vaxtından əvvəl qalib gəlib. Millimizin ən titullu güləşçisi 1/4 finalda dünya çempionu və Rio-2016 Olimpiadasının bürünc medalçısı olan çinli rəqibindən üstün olub. Finala gedən yolda Stadnik şimali koreyalı rəqibinə qalib gəlib. Qadın güləşçimizin qızıl medal uğrunda rəqibi Yaponiya güləşçisi olub. Mariya Stadnik güclü rəqibə uduzaraq yarışların gümüş medalına sahib olub.




Digər qadın güləşçimiz İrina Netreba ilk görüşdə Peru təmsilçisini məğlub etməyi bacarıb. Millimizin üzvü 1/8 finalda İsveç güləşçisi üzərində qələbə qazanıb. Netreba 1/4 finalda çinli rəqibinə də aman verməyib. Ancaq güləşçimiz finalın bir addımlığında kanadalı güləşçiylə bacarmayıb. Bürünc medal uğrunda amerikalı rəqiblə görgin keçən qarşılaşma İrina Netrebanın xeyrinə başa çatıb.

Digər güləşçimiz Rəsul Çunayev isə yarışların bürünc medalını qazanıb. Rəsul ilk görüşlərində ardıcıl olaraq yapon və iranlı güləşçiləri məğlub edərək yarımfinala yüksəlib. Finalın bir addımlığında ikiqat dünya çempionu olan Almaniya təmsilçisi ilə bacarmayan güləşçimiz bürünc medal görüşünə çıxıb. Rusiyalı rəqiblə gərgin keçən görüş idmançımızın xeyrinə başa çatıb.

Qeyd edək ki, dünya çempionatında hakimlərimizdən Hicran Şərifov, İntiqam Alıyev və Asif Şirəliyev ədaləti qoruyublar.

## Bədii gimnastlar Bakı çempionatında yarışacaqlar

Noyabrın 2-dən 3-dək Bakı Olimpiya İdman Kompleksində bədii gimnastika üzrə Bakı çempionatı təşkil ediləcək.

Sayca 25-ci dəfə keçirilən çempionatda “Ocaq Sport” İdman Klubu, Bakı Gimnastika Məktəbi, Respublika Kompleks İdman Məktəbi, Su İdman Sarayı, “AyUlduz” Klubu, Daxili İşlər Nazirliyinin İdman Cəmiyyəti, “Sərhədçi” Olimpiya İdman Mərkəzi və Zabrat İdman Klubunun yetirmələri iştirak edəcəklər.




İlk gün davam edəcək turnirdə 100-dək gimnastın çıxış edəcəyi gözlənilir. Yarışların ilk günü məhz balaca gimnastların çıxışları ilə əlamətdar olacaq. Belə ki, azyaşlı gimnastlar alətsiz, ip, halqa ilə öz proqramlarını təqdim edəcəklər və günün sonunda onlar fərdi çoxnövçülükdə öz aralarında qalibləri müəyyənləşdirəcəklər.

Növbəti yarış günündə isə yeniyetmələr start verəcəklər. Onlar da hakimlər qarşısına alətsiz, ip və halqa ilə çıxaraq, yüksək xal almaq üçün çalışacaqlar. Gənclər və böyüklər yaş kateqoriyasına bölünmüş gimnastlar isə halqa, top, gürzlər və lent ilə proqramlarını icra edəcəklər. Beləliklə, turnirin sonunda bütün alətlər üzrə yekun xal əsasında fərdi çoxnövçülükdə fərqlənmiş gimnastlar fəxri kürsüyə yüksələcəklər.

## Triatlonçumuz dünya kuboku yarışlarında dördüncü yeri tutub

Azərbaycan triatlonçusu Rostislav Pevtsov Ekvadorda keçirilən dünya kuboku yarışında dördüncü olub. İdmançımız 67 triatlonçunun mübarizə apardığı yarışı 52 dəqiqə 24 saniyəlik nəticə ilə başa vurub. R.Pevtsov 750 metrlik su məsafəsini 9 dəqiqə 10




saniyəyə yekunlaşdırıb. Ardınca idmançımız 20 kilometrlik velodistansiyanı 27 dəqiqə 7 saniyəyə qət edib. Nəhayət, yarışların sonuncu mərhələsi - 5 kilometrlik qaçış zolağını Rostislav 14 dəqiqə 34 saniyə nəticə ilə başa vurub. Dünya kuboku yarışının qalibi ispaniyalı David Kastro olub.Qeyd edək ki, idmançılarımız “Tokio-2020” Olimpiya Oyunlarına vəsiqə qazanmaq üçün iki il ərzində təsnifat turnirlərində iştirak edəcəklər. Bu müddət ərzində onlar dünya və Avropa çempionatları, dünya kuboku yarışları da daxil olmaqla çıxış etdikləri bütün turnirlərdə Olimpiadaya lisenziya xalları toplayırlar.

# Milli komandanın üzvləri ilə iclas keçirilib

Azərbaycan Milli Paralimpiya Komitəsində (AMPK) kişilərdən ibarət cüdo üzrə paralimpiya milli komandasının üzvləri ilə iclas keçirilib. Komitənin prezidenti İlqar Rəhimovun sədrlik etdiyi iclasda komandanın baş məşqçisi və idmançılar iştirak ediblər. İclasda noyabrda Portuqaliyada keçiriləcək dünya çempionatına və 2020-ci ildə Yaponiyanın paytaxtı Tokioda təşkil olunacaq XVI Yay Paralimpiya Oyunlarına hazırlıqla əlaqədar məşqçilərin və idmançıların məlumatları dinlənilib, görülmüş işlər və qarşıda duran vəzifələr geniş müzakirə edilib. İ.Rəhimov milli komandaya verdiyi dəstəyə görə Azərbaycan Cüdo Federasiyasının rəhbərliyinə təşəkkürünü bildirib. Müzakirələrin yekununda müvafiq qərarlar qəbul edilib.Paralimpiyaçı kişi cüdoçulardan ibarət milli komanda Azərbaycan Cüdo Federasiyasının dəstəyi ilə noyabrın 13-19-da Portuqaliyanın Odivellas şəhərində keçiriləcək dünya çempionatında iştirak edəcək.



## Badmintonçularımızdan Misirdə uğurlu nəticə

Misirin paytaxtı Qahirədə badminton üzrə “Egypt International 2018” turnirinə yekun vurulub. Ölkəmizi turnirdə badmintonçularımız Edi Reski Dviçayo və Ezmi Qovimuramadhoni təmsil edib.

Mübarizəyə əsas mərhələdən start verən Edi Reski Dviçayo ilk görüşünü Yunanıstan təmsilçisi İlias Xansouya qarşı keçirib. Oyunun ilk setində hesab 9:4 Edinin xeyrinə olarkən Xansou ayağından zədə alıb. Texniki qələbə ilə səkkizdəbir final mərhələsinə yüksələn E.Dviçayo burada Macarıstan badmintonçusu Gerqo Pitelə 2:0 (21:6, 21:14) hesabı ilə qalib gəlib. Badmintonçumuz dörddəbir finalda Mavriki Respublikasının təmsilçisi, yarışın bir nömrəli reytinq favoriti Julyen Polu 2:0 (21:14, 21:18) hesabı ilə məğlub edib. Yarımfinalda çexiyalı Milan Ludik üzərində 2:0 (21:16, 21:8) hesablı qələbə qazanan idmançımız finalda macarıstanlı Gergeli Krauza da set vermədən qalib gəlib -




2:0 (21:16, 21:16). Beləliklə, təmsilçimiz kişilərin şəxsi yarışında “Egypt International 2018” turnirinin qalibi adını qazanıb.

Digər badmintonçumuz Ezmi Qovimuramadhoni isə ilk görüşündə Rio Olimpiadasının iştirakçısı Lino Munoza 0:2 (13:21, 11:21) hesabı ilə uduzub.

Edi Reski Dviçayo - Ezmi Qovimuramadhoni cütü kişilərin qoşa yarışında uğurlu çıxışla yadda qalıblar. Edi və Ezmi dörddəbir finalda Pakistan (Anjum Bəşir/Şahmer İltikhar) ardınca isə Misir (Əhməd Salah/Əbdülrəhman Əbdülhakim) badmintonçularına 2:0 hesabı ilə qalib gəliblər. İdmançılarımız həlledici görüşdə misirli Əli Əhməd Əl Xateb və malayziyalı Yogendran Krişnan cütünü 2:1 (18:21, 21:15, 21:18) hesabı ilə məğlub edərək, kişilərin qoşa yarışında qızıl medal qazanıb.

## Xəbərlər

### Azərbaycan kuboku yarışları başa çatıb

Gənclər və yeniyetmələr arasında stolüstü tennis üzrə Azərbaycan kuboku yarışlarına yekun vurulub. Turnirdə müxtəlif idman məktəbləri, klub və cəmiyyətlərdən 100-dək stolüstü tennisçi fərdi və qoşa yarışlarda mübarizə aparıb.

Yekun nəticələrə görə, gənclər arasında həm fərdi, həm də qoşa yarışlarda Nəzakət Qarayeva və İbrahim Ansari birinci yeri tutublar. Qarışıq qoşa yarışlarda İbrahim Ansari - Zemfira Mikayılova ən yaxşı nəticə göstəriblər.

Yeniyetmələrin fərdi yarışlarında qızlar arasında Ləman Abdulhəmidova, oğlanlar arasında isə Kənan Pənahov qızıl medal qazanıblar. Qızların qoşa yarışlarında Ləman Abdulhəmidova - Fidan İranpur fərqləniblər. Emin Məmmədov - Xaliq Becanov isə oğlanlar arasında ən güclü cütlük olub. Qarışıq qoşa yarışlarda Ləman Abdulhəmidova - Hacımurad Məmmədbəyov fəxri kürsünün ən yüksək pilləsində yer alıblar.

Turnir başa çatdıqdan sonra mükafatlandırma mərasimi olub. Stolüstü Tennis Federasiyasının vitse-prezidenti Fazil Məmmədov qalibləri təbrik edib. İdmançılara Gənclər və İdman Nazirliyinin diplomları, federasiyanın kubok, medal və mükafatları təqdim olunub.

### Jelqava şəhərində VIII Latviya Gənclər Olimpiadası təşkil olunacaq

Latviyanın Jelqava şəhərində VIII Gənclər Olimpiadası keçiriləcək. Bu qərar Latviya Olimpiya Komitəsi tərəfindən verilib. Seçim iki şəhər -Jelqava və Dauqavpils arasında aparılıb.

Gələn il iyulun 5-dən 7-dək keçiriləcək yarışlarda ölkənin bütün şəhər və kəndlərindən olan 3 min gənc idmançı iştirak edəcək. Bir neçə növ üzrə qalib gələn gənc və yeniyetmələr arasında bu yay Bakıda keçiriləcək Yay Olimpiya Oyunlarında iştirak üçün vəsiqə qazanacaqlar.

### Qadın sablyaçılarımız dünya kubokuna hazırlaşırlar

Qadın sablyaçılardan ibarət Azərbaycan yığma komandası Ukraynanın Kiyev şəhərində təlim-məşq toplanışındadır. Oktyabrın 24-də başlamış təlim-məşq toplanışı noyabrın 6-dək davam edəcək.

Toplanış noyabrın 9-dan 11-dək Fransanın Orlean şəhərində keçiriləcək qılıncoynatmanın sablya növü üzrə qadınlar arasında dünya kubokuna hazırlıq xarakteri daşıyır.

Məşqlərdə sablyaçılarımızla birgə Türkiyə idmançıları da iştirak edir. Şəxsi və komanda üzrə keçiriləcək yarışda ölkəmizi Sevil və Sevinc Bünyatova bacıları, Səbinə Kərimova ilə Aysel Əhədova təmsil edəcəklər.

### Basketbolçumuz Ukrayna klubunda

Basketbol üzrə Azərbaycan yığmasının üzvü Zaur Paşayev 2018-2019-cu il mövsümünü Ukraynada keçirəcək. Basketbolçumuz “Kremen” komandasının idman şərəfini qoruyacaq.



Xatırladaq ki, son illərdə bu klubda millimizin digər üzvü Amil Həmzəyev uğurla çıxış edib.

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU**

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

***Uşaq və gənclərimizin fiziki və mənəvi inkişafı Azərbaycan dövlətinin əsas ideologiyalarından biridir. Uşaq və gənclərə göstərilən əvəzsiz qayğı ölkəmizin, millətimizin gələcəyi olan nəslin güclü xarakterə, sağlam ruha malik olmasında başlıca rol oynayır. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasından irəli gələn tələblər ölkəmizdə iqtisadi artım və insanların sosial rifahının yüksəldilməsini prioritet vəzifə kimi qarşıya qoyur. Təbii ki, Konsepsiyanın hədəflərindən biri də Azərbaycan gənclərinin sağlam və fəal həyat tərzini təşviq etmək və onların cəmiyyətə inteqrasiyasını təmin etməkdir. Bu məqsədlə 2013-2023-cü illəri əhatə edən Azərbaycan gənclərinin İnkişaf Strategiyası və 2016-2020-ci illər üçün Dövlət Proqramı, bədən tərbiyəsi və idmanın inkişafı üzrə 2012-2020-ci illəri əhatə edən Milli Strategiya və 2013-2016-cı illər üçün Dövlət Proqramları hazırlanaraq həyata keçirilir.***

***"Biz respublikamızda əhalimizin, millətimizin sağlamlığı haqqında - fiziki, mənəvi sağlamlığı haqqında düşünürük".***

***Heydər Əliyev***



# Gənc nəslin sağlamlığı, həm də qüdrətli, sağlam dövlətin təminatıdır

Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin insanların sosial rifah halının yaxşılaşdırılması, onların sağlam həyat tərzinin təmin edilməsi istiqamətində imzaladığı Sərəncam və fərmanlar ölkəmizdə uğurla həyata keçirilir. Əhalinin sağlamlığı, genofondun qorunmasına xidmət edən idman və Olimpiya Hərəkatının dinamik inkişafı onu deməyə əsas verir ki, ölkə gəncləri sağlam ruhda böyüyür və təhsil alırlar. Gənclərin sağlam həyat tərzinə üstünlük verməsi onların gələcək həyatında əsas və mühüm amillərdən biridir. Ölkə başçısının da dediyi kimi, bizim gənclərimiz savadlı, bilikli olmalıdırlar ki, həyatda özlərinə layiqli yer tuta bilsinlər: *"Bizim gənclərimiz bilikli, savadlı olmalıdırlar ki, həyatda özlərinə layiqli yer tutsunlar və eyni zamanda, ölkəmizin ümumi inkişafına da töhfələrini versinlər. Bilikli, savadlı cəmiyyətdə heç bir xoşagəlməz təsirin əhəmiyyəti olmayacaqdır. Çünki biz görürük ki, bu gün dünyada bəzi hallarda ideoloji müharibələr gedir, əsasən də gənclərlə bağlı xüsusi proqramlar icra edilir. Qloballaşma adı ilə müxtəlif ölkələrdə müəyyən tədbirlər görülür. Nəticə etibarilə bu, ölkələrdə problemlərə gətirib çıxarır. Biz çalışmalıyıq ki, Azərbaycanın dayanıqlı, uğurlu inkişafını əbədi edək. Çünki biz bu gün dünyada inkişafla bağlı öz modelimizi ortaya qoymuşuq. Bu gün dünyada Azərbaycanın inkişaf modeli haqqında danışılır. Bu modelin əsasında bizim müstəqilliyimiz, milli dəyərlərimiz, vətənpərvərliyimiz və müstəqil siyasətimiz dayanır".*

Azərbaycan tarixinin hər bir mərhələsində aparıcı sosial-siyasi qüvvəyə çevrilən gənclər müstəqilliyin qorunub saxlanması, möhkəmləndirilməsi və dövlətçiliyin inkişaf etdirilməsi prosesində yaxından iştirak edirlər. Gənclərimiz öz həyatını qurarkən hər şeydən əvvəl müstəqil Azərbaycanın bugünü və gələcəyi haqqında düşünür, yüksək vətəndaşlıq mövqeyinə malik olduqlarını nümayiş etdirirlər. Buna gənclərin yüksək potensialı, əldə etdikləri elmi bilikləri, mübarizlik və vətənpərvərlik hissləri imkan verir, desək, yanılmarıq. Tarixən hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini, ilk növbədə, gənc nəsillə bağlayır. Ümumiyyətlə, gənclik bir millətin yaşaması, inkişafı üçün təməl daşıdır. Bir millətin mövcud olması üçün isə onun sağlam gəncliyinin olması əsas və vacib şərtdir. Mütəxəssislərin də dedikləri kimi, insan sağlamlığının qayğısına erkən yaşlarından qalmalıdır. Gənclik dövründə əldə edilən sağlamlıq bazası ahıl yaşlarında çox faydalı olur. Sağlamlıq üçün ən vacib şərt isə idmanla məşğul olmaq, daha çox fiziki hərəkətlər etməkdir. İnsanın mənəvi və fiziki sağlamlığında mühüm rol oynayan idmanın geniş miqyasda yayılması, kütləviləşməsi və yüksək səviyyədə inkişafı gənc nəslin hərtərəfli inkişafında özünü göstərir. Hazırda Azərbaycanda fəaliyyət göstərən idman klubları, idman zalları minlərlə uşağın sağlamlığının təminatçısına çevrilib. Ölkədə mövcud müasir Olimpiya kompleksləri, stadionlar, zallar möhkəm baza olmaqla bərabər, həm də uşaq və gənclərin idmanla, bədən tərbiyəsi ilə məşğul olmaları üçün çox gözəl imkandır. Respublikamızda uşaqlar, yeniyetmələr və gənclər Olimpiya və qeyri-Olimpiya idman növləri üzrə müxtəlif klub və cəmiyyətlərdə idmanın sirlərinə yiyələnirlər. Onlardan bəziləri idmanla peşəkar, bəziləri isə həvəskar şəkildə məşğul olurlar.

## Velosiped sürən insan saatda 600 kalori itirmiş olur

Son illərdə Olimpiya idman növlərindən olan velosiped ölkəmizdə populyarlıq qazanıb. Velosiped idmanı dünyada sevilən idman növlərindən biridir. Mütəxəssislər bədənin möhkəmləndirilməsi və sağlamlıq baxımından bu idman növünü gimnastika, qaçış, üzgüçülük kimi çox mükəmməl hesab edirlər. Velosipedin tarixi 500 il bundan əvvələ təsadüf edir. Velosiped idmanına şosse, trek, dağ velosiped idmanı və BMX (velosiped motokrosu) kimi növlər daxildir. Velosiped yarışları Afina-1896-dan etibarən bütün Olimpiya Oyunlarının proqramında nümayiş etdirilib. İdmançılar dördilliyin idman yarışında 4 növ - trek, şosse, mayntinbayk və BMX üzrə 18 dəst medal uğrunda mübarizə aparırlar.

Qeyd edək ki, velosipeddən XIX əsrdən etibarən aktiv istifadə olunmağa başlanılıb. İnsanlar bu minik vasitəsindən istirahət, əyləncə, şou və təbii ki, idman məqsədilə istifadə edirlər. Məlumat üçün bildirək ki, velosiped sürən insan saatda 600 kalori itirmiş olur. Maraqlıdır ki, Çin, Yaponiya, Belçika, ABŞ, İsveç, Almaniya və digər ölkələrdə velosipeddən nəqliyyat vasitəsi kimi istifadə olunur. Paytaxt Bakı dünyanın böyük şəhərlərində olduğu kimi sıx tıxac problemi ilə üzləşməsə də, ictimai və şəxsi nəqliyyatda müəyyən çətinliklər nəzərə çarpır. Bu təcrübənin ölkəmizdə tətbiq olunması, həm ekologiyanın qorunmasına, həm də velosiped idman növünün kütləviliyinə töhfə vermiş olardı.

Tanınmış ABŞ velosipedçisi, dəfələrlə dünya çempionu Lens Armstronq müsahibələrinin birində deyir: "Həkimlər bir gün eyni vaxtda məndə beyin, ağciyər və yumurtalıq xərçəngi aşkar etdilər. Dəhşət idi. Onlar mənə idmanı atmağı təklif etdilər, amma mən onların dediklərinə əhəmiyyət vermədim. Müalicə alıb sağaldıqdan sonra, beş dəfə ardıcıl şəkildə "Tur-de-Frans"ın qalibi oldum". Bu, velosipedlə xəstəliyə, həkimlərə meydan oxuyan və qalib gələn bir idmançının həyat tarixçəsidir. Mütəxəssislər istər evdə, istər küçədə velosiped sürməyi kalori yandırmaq və formada qalmaq üçün çox əlverişli vasitə hesab edirlər. Bu, sizə məşq üçün bahalı idman dəsti almaqdan daha asan və ucuz başa gələcək. İdman mütəxəssisləri insan sağlamlığı üçün velosiped sürməyin 5 əsas faydasını nəzərə çatdırırlar.

### 1. Əzələləri inkişaf etdirir.

Velosipedə minmək hərəkətli və ya sabit bir velosiped üzərində edilən müqavimətli idman növüdür. Ayaqlarınızla pedalları çevirərkən əzələlərinizi inkişaf etdirirsiniz. Diz əzələləriniz kimi böyük əzələlərinizi inkişaf etdirir, maddələr mübadiləsi sürətini artırırsınız. Əzələlər hərəkət edə bilmək üçün kaloriyə ehtiyac duyur və buna görə də nə qədər çox əzələniz varsa, o qədər çox kalori yandırırsınız. Velosipedə minmək eyni vaxtda diz və ayaq biləyi əzələlərini də gücləndirir. Diz ağrısı çox rast gəlinən bir narahatlıqdır, velosiped sürməklə oynağın ətrafındakı əzələləri inkişaf etdirmək burxulma və əzilmənin qarşısını alır.

### 2. Ürəyinizi qoruyur.

Məşq etmək sadəcə arıqlamaq deyil, eyni vaxda sağlam və formada qalmaq üçün də əhəmiyyətlidir. Nizamlı olaraq ürək damarlarını məşq etdirən insanlar daha uzun ömür yaşayırlar. Sağlam ağciyərlərə sahib olmaq astma kimi tənəffüs xəstəliklərinə daha müqavimətli olmaq deməkdir. Orta və ya yüksək sürətli velosipedə minmək ürək döyüntüsünün sürətini artırır və formada qalmağa kömək edir.

### 3. Artıq çəkidən xilas edir.

Velosiped sürmək kalori yandıraraq çəkinizi azaltmaq üçün çox faydalıdır. Böyük əzələlər işlədiyi üçün 65 kilo çəkisi olan bir nəfər bir saat ərzində orta sürətli velosipedlə təxminən 600 kalori yandırmış olur. Həm də velosipedə minmək oynaqlara həddindən artıq yük salmadığı üçün hər yaşda olan insanlar üçün ideal bir məşqdir.

### 4. Ətraf mühiti qoruyur.

Bütün bu üstünlüklərlə yanaşı, velosipedə minərək istixana qazını və yol tıxaclarını da azaltmış olacaqsınız. Velosipedə minmək enerji məhsuldarlığı baxımından ən yaxşı nəqliyyat vasitələrindən olub dünyadakı bir çox insanın da ən sevdiyi nəqliyyat növüdür.

### 5. Vaxta və büdcənizə qənaəti təmin edir.

Velosipeddən nəqliyyat vasitəsi kimi istifadə etsəniz, benzin yerinə kalori itirəcəksiniz. Bu da benzin və parketmə xərclərinin qarşısının alınması deməkdir. Bundan başqa, avtomobil sürmək əvəzinə velosipeddən istifadə edərək avtomobilinizə və cibinizə də ziyan vurmazsınız.

## Ölkəmizdə velosiped idmanına maraq böyükdür

Ölkə əhalisinin sağlamlığı, uşaq və gənclərin sağlam həyat tərzi keçirmələri, onların fiziki və mənəvi inkişafı müasir dövrümüzdə dövlətin inkişafını, xoşbəxt gələcəyini əsaslandıran amillərdəndir. Sağlamlıq insana məxsus olsa da, eyni zamanda, dövlətin, cəmiyyətin mülkiyyəti hesab olunur. Əhalinin sağlamlığı, həm də qüdrətli, sağlam dövlətin təminatıdır. Gəlin etiraf edək ki, sağlamlıq təbiətin bizə bəxş etdiyi hədiyyədir və onu uşaq, gənc yaşlarından qorumaq lazımdır. Bunun üçün ən yaxşı vasitə isə idman və bədən tərbiyəsidir. Ümummilli lider, Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin də dediyi kimi: "İdman, bədən tərbiyəsi müstəqil Azərbaycanın həyatında dövlət qayğısı ilə əhatə olunaraq, eyni zamanda, həm gənclər üçün, həm də bütün cəmiyyətimiz üçün zəruri bir sahəyə çevrilibdir. Güman edirəm ki, bu dönüş, yəni bu hadisə gələcək üçün çox gözəl əsasdır və bizim millətimizin, xalqımızın fiziki sağlamlığı üçün, təkcə fiziki sağlamlığı deyil, zehni sağlamlığı üçün, sağlam gənc nəsil yetirməsi üçün çox gözəl əsasdır və biz hamımız bu sahəni bundan sonra daha da inkişaf etdirməliyik".



Təbii ki, ölkədə idman və Olimpiya hərəkatının təbliği və inkişafında, eləcə də, uğurlu nəticələrin əldə olunmasında federasiyaların üzərinə böyük məsuliyyət düşür. Azərbaycan Velosiped İdmanı Federasiyası (AzVİF) da yarandığı ilk gündən üzərinə düşən öhdəlikləri yerinə yetirmək üçün öz işini günün tələbləri səviyyəsində qurub. 2011-ci ildə yenidən bərpa olunan federasiya qısa müddət ərzində bir sira nailiyyətlər qazanıb. Federasiyanın həyata keçirdiyi layihələr artıq öz bəhrəsini verir. AzVİF ölkəmizdə velosiped idmanının inkişaf etdirilməsi və velosipedçi idmançılarımızın Olimpiya Oyunlarında və digər mötəbər beynəlxalq yarışlarda iştirakı istiqamətində mühüm işlər görür. Ölkəmizdə, xüsusilə də gənclər arasında velosiped idman növünün kütləviləşdirilməsi, həmçinin onların sağlam ruhda tərbiyə olunması adıçəkilən federasiyanın fəaliyyətinin prioritet istiqamətlərindəndir. Sevindirici haldır ki, velosiped idmanı üzrə milli komandamız "Sinergy Baku Cycling Project" ölkəmizi beynəlxalq yarışlarda uğurla təmsil edir. Milli komandamızın üzvləri yüksək səviyyəli yarışlardan vətənə nəticələrlə qayıdırlar.

Hazırda ölkəmizdə velosiped idmanı Respublika Olimpiya Ehtiyatları İxtisaslaşdırılmış Uşaq-Gənclər Velosiped İdmanı Məktəbində, "Neftçi" İdman-Sağlamlıq Mərkəzində, Sumqayıt Velosiped İdman Klubunda, 8 saylı İdman Olimpiya Məktəbində, "Sərhədçi" İdman Olimpiya Mərkəzində, İsmayıllı və Oğuz rayonlarında inkişaf etdirilir. Federasiya ölkəmizdə fəaliyyət göstərən velosiped idmanı məktəblərinə və klublarına daim dəstək göstərir, idmançılarımızın ölkəmizi beynəlxalq yarışlarda təmsil etmələri üçün konkret layihələr və tədbirlər həyata keçirir.

Azərbaycanda velosiped idman növünün təbliği və inkişafında ölkəmizdə keçirilən beynəlxalq tədbir və yarışların da böyük rolu vardır. Velosiped İdmanı Federasiyasının təşkilatçılığı ilə hər ilin may ayında keçirilən və ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunan "Tour d'Azerbaidjan" mərhələ yarışları buna gözəl nümunədir. Məlumat üçün bildirək ki, bu yarışlar ilk dəfə 2012-ci ildə təşkil olunub və Heydər Əliyevin xatirəsinə 23 yaşadək velosipedçilərin turu adı altında keçirilib. 2013-cü ildən etibarən isə "Tour d`Azerbaidjan" adıyla təşkil olunan beynəlxalq idman tədbirində 40-a yaxın ölkənin velosipedçisi qüvvəsini sınayır.

Hər il ənənəvi olaraq Azərbaycan Velosiped İdmanı Federasiyası tərəfindən 9 Noyabr - Dövlət Bayrağı Günü, 28 May - Respublika Günü münasibətilə veloyürüşlər təşkil edilir. Təkcə bir faktı deyək ki, hər il "Bayrağımız - qürur mənbəyimizdir!" devizi altında keçirilən veloyürüşdə ölkənin müxtəlif yaş qrupları üzrə yığma komandalarının üzvləri ilə yanaşı, 200-dən artıq həvəskar velosipedçi iştirak edir. Adıçəkilən tədbirdə iştirak edən həvəskar velosipedçilərin sayının ildən-ilə artması bu növün ölkəmizdə son illərdə daha sürətlə inkişafından xəbər verir.

Bu il oktyabrın əvvəlində Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) təşəbbüsü ilə "Az avtomobil - çox həyat" devizi altında veloyürüş keçirilib. Avtomobilsiz istirahət günü ənənəsini təbliğ edən veloyürüş Azneft meydanından start götürməklə Heydər Əliyev Mərkəzinədək davam edib. Yürüşdən əvvəl iştirakçılara təhlükəsizlik qaydaları barədə məlumat verilib. ETSN-nin əməkdaşlarının da iştirak etdiyi veloyürüşdə 200-dən artıq həvəskar və peşəkar velosipedçi iştirak edib. Aksiyanın sonunda Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən iştirakçılara diplom və təşəkkürnamələr verilib.

## Uşaqlar bizim gələcəyimizdir

İnsanların fiziki inkişaf səviyyəsini qiymətləndirmək vasitəsi kimi meydana çıxan idmanın ümumbəşəri mədəniyyətin tərkib hissəsi olduğunu deməyə, məncə, ehtiyac yoxdur. Bir də dünya təcrübəsi, tarix əsrlər boyu sübut etmişdir ki, mənəvi və fiziki sağlamlıq xalqın ümumi sağlamlığı, millətin bu günü və gələcəyidir. Bu baxımdan gələciyimiz olan uşaqların zərərli vərdişlərdən uzaq olaraq idman və bədən tərbiyəsi ilə məşğul olmaları, sağlam gənc nəsil kimi yetişmələri mühüm əhəmiyyət kəsb edən məsələlərdəndir. Uşaqları kiçik yaşlarından düzgün tərbiyə etmək, onların əqli və fiziki imkanlarını yüksək səviyyədə inkişaf etdirmək, gələcəkdə vətənə, xalqa layiq övlad kimi yetişdirmək hər birimizin arzusudur. Bunun üçün də ailə, məktəbəqədər təhsil müəssisələri, təhsil ocaqları əl-ələ verib ümumi işə xidmət etməyi özlərinə borc, vəzifə bilirlər.

Orta məktəblərdə fiziki tərbiyə və idman dərslərində velosiped idman növünün təbliğ olunması istiqamətində işlər aparılması və məktəblərin tədris vəsaiti kimi inventarla təmin olunması məqsədəuyğun olardı. Bu sahədə digər ölkələrin təcrübəsindən bəhrələnməyə dəyər. Götürək, elə Yaponiyanı. Burada uşaqlara "pis" və ya "yaxşı olmayan" sözlər öyrədilmir. Adi bir faktı deyək ki, onlar məktəb yaxınlığındakı velosiped dayanacaqlarında vurulan işarələrdə iki elan yerləşdirirlər. Birinci elanda səliqə ilə düzülmüş velosipedlər əks olunur və altında: "Yaxşı uşaqlar velosipedlərini belə saxlayırlar", - yazılır. Digər elanda isə velosipedlər aşmış, səliqəsiz vəziyyətdə təsvir olunur və onun altında "Yaxşı uşaqlar velosipedlərini belə saxlamırlar" yazısı qeyd olunur. Yaponlar əslində, əyani təsvir vasitəsilə uşaqları həm tərbiyə edir, həm də velosiped idman növünə həvəs oyadırlar. Gözəl təcrübədir, məncə, öyrənməyə dəyər.

Hazırda ölkəmizdə gənclər siyasəti uğurla həyata keçirilir və gənc nəslə yüksək səviyyədə diqqət və qayğı göstərilir. Ölkə əhalisinin 31 faizini təşkil edən gənclər də dövlət qayğısını daim öz üzərlərində hiss edərək, nailiyyətləri ilə onlara göstərilən qayğını doğrultmağa çalışırlar. Çünki Azərbaycan Prezidenti İlham Əliyev gəncləri sevir və onlara inanır: "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram".

Bu yüksək münasibətə cavab olaraq Azərbaycanın parlaq gələcəyinin təminatçısı olan gənclərimiz bütöv və müstəqil Azərbaycan naminə səylə cəhd göstərir və onlara arxalanan ölkə rəhbərinin etimadını doğrultmağa çalışırlar.

***Səadət Hakıyeva***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

Karate

## Komandamız dünya çempionatına hazırlaşır

Noyabrın 5-dən 11-dək İspaniyanın paytaxtı Madriddə keçiriləcək 24-cü dünya çempionatına hazırlıqları davam etdirən karate üzrə Azərbaycan milli komandası Şamaxıda təlim-məşq toplanışında iştirak edir. Yığma komandaların baş məşqçiləri Şahin Xudaverdiyev, Anar Allahverdiyev və Vahid Ayvazovun, eləcə də, böyük məşqçilər Qurban Tağıyev, Rəşad Hüseynov və fiziki hazırlıq üzrə məşqçi Oqtay Məmmədovun rəhbərliyi altında təlim-məşq toplanışına 15 idmançı cəlb olunub. Şamaxı Olimpiya İdman Kompleksindəki son hazırlıqlarda Firdovsi Fərzəliyev (60 kq), Rafael Ağayev (75 kq), Şahin Atamov, Asiman Qurbanlı, Murad Hacızadə (hər üçü 84 kq-dan yuxarı) və Roman Heydərov (kata) kimi təcrübəli idmançılar iştirak edirlər. Milli komandanın heyətində qızlardan Nuranə Əliyeva (50 kq), İlahə Qasımova (55 kq), Fəridə Abiyeva (61 kq) və Fəridə Əliyeva (68 kq-dan yuxarı) yer alıblar. Karateçilərimiz təlim-məşq toplanışını başa vurduqdan sonra noyabrın 3-də Madriddə təşkil olunacaq dünya çempionatına yollanacaqlar.

* * *

İranda "Tehran Open" beynəlxalq turnirində iştirak edən Sumqayıt karateçiləri yüksək nəticə əldə ediblər. Karateçilərimiz ümumilikdə on dörd medal qazanıblar. Onlardan beşi qızıl, beşi gümüş, dördü isə bürüncdür. Turnirdə Elməddin Səlimli (6-7 yaş, kata qızıl, kumite gümüş medal), Amil Abbaslı (8-9 yaş, kata gümüş, kumite bürünc medal), Seymur Mütəllimli (8-9 yaş, kata bürünc, kumite qızıl medal), Akif Məmmədli (12-13 yaş, kata bürünc, kumite gümüş medal), Səlbidə Ağalı (10-11 yaş, kata və kumite qızıl medal), Həsən Osmanov (8-9 yaş, kumite gümüş medal), Samirə Babayeva (16-17 yaş, kata gümüş medal), Yusif Hüseynli (8-9 yaş, kumite bürünc medal) və Murad Hüseynov (14-15 yaş, kumite bürünc medal) mükafatçılar sırasında yer alıblar.

İdmançılar turnirdə məşqçilər Rafael Məmmədov və Elnurə Ramazanovanın rəhbərliyi altında iştirak ediblər.

* * *

Bugünlərdə Bolqarıstanın Albena şəhərində karate üzrə Avropa çempionatı təşkil olunub.

Yarışda ölkəmizi 21 idmançı təmsil edib. Onların arasında "Araz" İdman Klubunun idmançıları da yer alıblar. Avropa çempionatında çıxış edən iki karateçimiz də vətənə medalla qayıdıblar. Belə ki, Ramin Mazanov açıq çəki dərəcəsində bütün rəqiblərini qabaqlayaraq qızıl medala layiq görülüb. Digər təmsilçimiz İlqar Ələkbərov (84 kq) isə yarışları gümüş medalla başa vurub. Həmyerlimiz həlledici qarşılaşmada çexiyalı rəqibinə güzəştə gedib.

"Araz" İK-in rəhbəri Səyavuş Bayramov yarışla bağlı bunları deyib. "Avropa çempionatında dünyanın 16 ölkəsindən 800-ə qədər idmançı iştirak edirdi. Belə mötəbər yarışda klubumuzun üzvlərinin iştirak etmələri və hər ikisinin medal qazanması məni klub rəhbəri kimi çox sevindirir. Çalışacağıq ki, qarşıdan gələn yarışlarda da uğurlarımızı davam etdirək".

Qeyd edək ki, "Araz" İK ölkəmizdə öz uğurları ilə fərqlənən fəal idman klublarından biridir. Burada karatenin kontakt və yarım-kontakt növləri üzrə yüzlərlə idmançı məşq edir. Klubun idmançıları dünya və Avropa çempionatları kimi mötəbər yarışlarda fərqlənirlər.



Xəbərlər



## "Təhsil" RİM-in açıq birinciliyi

Oktyabrın 23-27-də "Təhsil" RİM-in tərkibində fəaliyyət göstərən 1 saylı İOUGİM-də 2003-2004-cü illər təvəllüdlü boksçular arasında açıq birincilik keçirilib. Yarışın açılış mərasimində çıxış edən "Təhsil" RİM-in baş məşqçisi, Əməkdar məşqçi Rəhim Allahverdiyev qonaqları salamlayaraq, boksçulara uğurlar arzulayıb. Sonra çıxış edən "Təhsil" RİM-in direktoru Fərhad Acalov bu cür yarışların keçirilməsinin yeniyetmə və gənclərin potensialının üzə çıxması baxımından çox vacib olduğundan danışıb.

Birincilikdə 13 komandanı təmsil edən 100-ə yaxın boksçu iştirak edib. 4 gün davam edən mübarizənin sonunda 1 saylı UGİM birinci yerə layiq görülüb. "Baku fight" klubu ikinci, DİN İC isə üçüncü yerə sahib çıxıb.

Qeyd edək ki, yarışın baş hakimi beynəlxalq dərəcəli hakim Fikrət Hacıyev olub.

## Fövqəladə Hallar Nazirliyinin qurumları arasında voleybol yarışı keçirilib

Oktyabrın 22-dən 26-dək Fövqəladə Hallar Nazirliyinin (FHN) İdman-Sağlamlıq Klubu və FHN işçilərinin həmkarlar İttifaqının birgə təşkilatçılığı ilə nazirliyin qurumları arasında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş voleybol üzrə çempionat keçirilib.

Çempionatın ilk üç günü FHN-in Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin (TTNDA) idman zalında, yarımfinal və final mərhələsi isə Azərbaycan Voleybol Federasiyasında təşkil olunub. Yarışda 150-yə yaxın idmançının təmsil olunduğu 13 komanda öz qüvvəsini sınayıb.



Gərgin idman mübarizəsi şəraitində keçən yarışın final görüşü Nazirliyin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi və Dövlət Yanğından Mühafizə Xidmətinin komandaları arasında oynanılıb. Rəqibini məğlub edən Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin komandası birinci, Dövlət Yanğından Mühafizə Xidmətinin komandası ikinci, FHN-in Akademiyasını məğlub edən Xüsusi Riskli Xilasetmə Xidmətinin komandası isə üçüncü yerə layiq görülüb.

Tədbirdə çıxış edən Fövqəladə Hallar Nazirliyi işçilərinin Həmkarlar İttifaqının sədri Mehman İsmayılov yarışın Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmasının əhəmiyyətindən danışıb, komandaları təbrik edib və onlara uğurlar arzulayıb.

Sonda qalib komandalara kubok, medallar, diplomlar və qiymətli hədiyyələr təqdim edilib.

Qeyd edək ki, yarışın baş hakimi Səbuhi Əliyev olub.

## Poliatlon çoxnövçülüyü üzrə yarışın qalibləri müəyyənləşib

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının stadionunda Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) tərəfindən payız çağırışına həsr olunmuş Vətənin Müdafiəsinə Hazıram poliatlon çoxnövçülüyü üzrə paytaxt çempionatı keçirilib.

Çağırışa qədər və çağırış yaşlı gənclərin ümumi və xüsusi fiziki hazırlıq səviyyələrini müəyyən etmək və yüksəltmək, gənclərdə vətənpərvərlik ruhunun aşılanması məqsədilə keçirilən çempionatda 17-19 yaşlı yeniyetmə və gənclər 100 və 1000 metr məsafələrə qaçış, turnikdə dartınma və qumbara atma yarışlarında güclərini sınayıblar.

Yekun nəticələrə əsasən, komanda hesabında Nərimanov rayonu birinci olub. Nizami rayonu yarışı ikinci, Xətai rayon komandası isə üçüncü pillədə başa vurub. Şəxsi hesabda Kamran Səfərov (Nərimanov rayonu) fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Murad Paşayev (Nizami rayonu) ikinci, Turan Əmrəliyev (Nərimanov rayonu) isə üçüncü pillədə qərarlaşıblar.

Komanda və şəxsi hesabda fərqlənən idmançılar Baş İdarə tərəfindən müvafiq dərəcəli diplom və medallarla təltif olunublar.

Bakı çempionatında ilk iki yeri tutmuş komanda noyabrın 7-də Xaçmazda keçiriləcək respublika final mərhələsinə vəsiqə qazanıb.

Spartakiada

## 21 medal uğrunda mübarizənin qalibləri bəlli oldu

Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Azad Həmkarlar İttifaqı Rəyasət Heyətinin təşkilatçılığı ilə AMEA-da II Spartakiada keçirilib. II Spartakiada 4 idman növü üzrə (şahmat, dama, stolüstü tennis və futbol) qadın və kişilər arasında təşkil olunub. Yarışda AMEA-nın 20 institut və təşkilatı iştirak edib. Oktyabrın 1-25-də keçirilmiş II Spartakiadada 21 medal uğrunda (7 qızıl, 7 gümüş, 7 bürünc) mübarizə aparılıb. Dama və stolüstü tennis üzrə yarışlarda qadınlar arasında birinci yerə Fizika İnstitutunun əməkdaşı Aytən Şərifli layiq görülüb. Kişilər arasında keçirilmiş dama yarışlarında Ramis Həsənov (NKPİ) birinci yeri tutub. Kişilərin stolüstü tennis yarışlarında isə Veysəl Məmmədov (Geologiya və Geofizika İnstitutu) birinci olub. Şahmat yarışlarında qadınlar arasında birinci yerə Ziyarət Paşayeva (NKPİ), kişilər arasında Yusif Abdullayev (Fizika İnstitutu) sahib çıxıb.

II Spartakiadada 6 medal qazanan Fizika İnstitutu I yer, 3 medala sahib çıxan Geologiya və Geofizika ilə Neft-Kimya Proseslər İnstitutları II və III yerləri tutaraq AMEA Azad Həmkarlar İttifaqı Rəyasət Heyətinin qərarı ilə fəxri diploma təltif ediliblər.

II Spartakiadanın yarışları (şahmat, stolüstü tennis və futbol) respublika və beynəlxalq dərəcəli hakimlər tərəfindən idarə olunub. Dörd hakim AMEA Azad Həmkarlar İttifaqının Rəyasət Heyətinin qərarı ilə fəxri fərmanla təltif olunub.



Oktyabrın 25-də II Spartakiadanın bağlanış mərasimi təşkil olunub. Bağlanış mərasimindən əvvəl futbol üzrə yarışların üçüncü yer uğrunda (İqtisadiyyat İnstitutu və AMEA Rəyasət Heyəti) və final (Geologiya və Geofizika İnstitutu və Respublika Seysmoloji Xidmət Mərkəzi) görüşləri keçirilib. Oyunların nəticələrinə əsasən RSXM birinci, Geologiya və Geofizika İnstitutu ikinci, AMEA Rəyasət Heyətinin komandası isə üçüncü yerə sahib çıxıb.

Oyunlardan sonra II Spartakiadanın bağlanış mərasimi keçirilib. Tədbirdə çıxış edən AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli bildirib ki, AMEA-da rəsm çəkmək, şeir yazmaq kimi istedadı olan alimlərin üzə çıxarılması üçün bir sıra tədbirlər planı həyata keçirilib. Buna misal



olaraq, IX Rəsm sərgisini, bədii yaradıcılıqla məşğul olan gəncləri fərqləndirmək üçün keçirilmiş "Qoşa qanad" layihəsini göstərmək olar. O, AMEA-nın əməkdaşlarının təkcə elmdə deyil, digər sahələrdə də bacarıqlarını göstərmək üçün yaradılan şəraitdən danışıb. Bildirib ki, bu cür tədbirlərə ictimai marağın artmasına səbəb AMEA-nın prezidenti, akademik Akif Əlizadənin apardığı siyasətdir.

AMEA Azad Həmkarlar İttifaqı Rəyasət Heyətinin sədri, hüquq elmləri doktoru, professor Habil Qurbanov II Spartakiadanın təşkilində böyük kollektivin xidməti olduğunu qeyd edib. O, yarışların beynəlxalq və respublika dərəcəli hakimlər tərəfindən idarə edildiyini vurğulayıb. Oyunların obyektiv keçirilməsində hakimlərin rolundan danışan H.Qurbanov gələcəkdə voleybol və basketbol yarışlarının keçiriləcəyi haqqında da məlumat verib.

AMEA Azad Həmkarlar İttifaqının Rəyasət Heyətinin üzvü, Fizika İnstitutunun aparıcı elmi işçisi, Həmkarlar Komitəsinin və Təşkilat Komitəsinin sədri Sitarə Bağırova bildirib ki, yarışda AMEA-nın 20 institut və təşkilatı iştirak edib. Oktyabrın 1-25-də keçirilmiş II Spartakiadada 21 medal uğrunda (7 qızıl, 7 gümüş, 7 bürünc) mübarizə aparılıb. Çıxışın sonunda o, qalibləri təbrik edib.

Tədbirin sonunda mükafatlandırma mərasimi keçirilib.

## Sabirabadda yarış həyəcanı başa çatdı

Ölkəmizdə bədən tərbiyəsi və idmanın, o cümlədən milli idman növlərinin geniş formada inkişaf etdirilməsi ümummilli liderimiz Heydər Əliyevin tövsiyələrinə uyğun olaraq bu gün də uğurla həyata keçirilir. Gənc nəsli Azərbaycan xalqının idmanla məşğulluğunun tarixi ilə tanış etmək, qədim xalq idman növlərinin yenidən populyarlığına nail olmaq məqsədilə "Məhsul" Kənd Könüllü Həmkarlar Kooperativ İdman Cəmiyyəti İlham Əliyev bədən tərbiyəsi və idmanın inkişafının daha da sürətləndirilməsi, əhalinin bütün təbəqələrinin kütləvi surətdə idmanla məşğulluğa cəlb olunmasının təmin edilməsi haqqındakı göstəriş və tələbləri, milli idman oyunlarının yenidən bərpası və inkişaf etdirilməsinə əsas verir. Respublika Şurası 1990-cı ildən başlayaraq hər il milli idman növləri üzrə kənd idmançılarının Respublika Spartakiadasını keçirir. Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti Azərbaycan xalqının milli idman oyunlarının yenidən bərpası və inkişaf etdirilməsi məqsədilə hər il müxtəlif tədbirlər və spartakiadalar keçirilir. Sabirabad Olimpiya İdman Kompleksində "18 Oktyabr - Dövlət Müstəqilliyi Günü" nə həsr edilmiş XXVIII Respublika Spartakiadası da bu məqsədə xidmət edib. Spartakiada Kənd Təsərrüfatı Nazirliyi, Gənclər və İdman Nazirliyi, Azərbaycan Kənd Təsərrüfatı və Qida Sənayesi İşçiləri Həmkarlar İttifaqı Federasiyası, Həmkarlar İdman Təşkilatları İctimai Birliyi və "Məhsul" Kənd Könüllü Həmkarlar Kooperativ İdman Cəmiyyətinin Respublika şurasının birgə təşkilatçılığı ilə həyata keçirilib. Spartakiadada ümumilikdə 316 iştirakçı və 17 rayon şurası iştirak edib. Gərgin mübarizə şəraitində keçən yarışda birinci yeri (1136 xal) Şamaxı Rayon Şurası tutub. Cəlilabad Rayon Şurası 1006 xalla ikinci yerə sahib çıxıb. Sabirabad Rayon Şurası isə üçüncü yerə layiq görülüb (966 xal).



Yarışın sonunda fərqlənən idmançılar diplom və qiymətli hədiyyələrlə təltif olunublar.

# FUTBOL

## “Flaqman” qalib gələrək çempionluq yolunda mühüm addım atdı



***Futbol üzrə Azərbaycan Topaz Premyer Liqasında 9-cu turun oyunları keçirilib. Turun açılış matçı “Əlincə Arena”da keçirilib. Meydan sahibi “Sabah” komandası “Zirə”ni qəbul edib. Görüş “Sabah”ın 2:1 hesablı qələbəsi ilə başa çatıb. Oyunda hesabı 45-ci dəqiqədə “Sabah”ın futbolçusu Məqsəd İsayev açıb. O, cərimə meydançasının daxilində Cavid İmamverdiyevin ötürdüyü topu dəqiq zərbə ilə tamamlayıb - 1:0. Birinci hissə bu hesabla başa çatıb.***

Qarşılaşmanın ikinci hissəsində zirəlilər hesaba tarazlıq gətirib. Belə ki, Pərdis Fərcad-Azadın ötürməsini Tellur Mütəllimov qola çevirib. Vurulan qoldan sonra irəli atılan meydan sahibləri oyunun 90-cı dəqiqəsində qələbə topunu vurmağa nail olub. Vitali Kvaşukun ötürməsindən sonra rəqib qapısına yol tapan Cavid İmamverdiyev oyunda son nöqtəni qoyaraq yekun nəticəni müəyyənləşdirib.

Bu qələbədən sonra “Sabah” xallarının sayını 16-ya çatdırıb. “Zirə”nin isə aktivində 4 xalı var.

Turunun ikinci matçında “Sumqayıt” komandası “Qəbələ”ni qəbul edib. “Dalğa Arena”da keçirilmiş görüş heç-heçə ilə yekunlaşıb. Baş hakim Orxan Məmmədovun idarə etdiyi oyunda meydan sahiblərinin heyətində 7-ci və 19-cu dəqiqələrdə Şəhriyar Əliyev dubl edib. “Qəbələ”nin heyətində isə Stiven Monroz (41) və Atakora Lalavele (56) fərqləniblər - 2:2. Matçın 89-cu dəqiqəsində qonaqların heyətində Bəhlul Mustafazadə qırmızı vərəqə ilə cəzalandırılıb.

Turun ikinci oyun günündə “Keşlə” klubu “Bayıl Arena”da “Səbail”in qonağı olub. Görüş meydan sahiblərinin 2:1 hesablı qələbəsi ilə başa çatıb. “Dənizçilər” hər iki qolu birinci hissədə vurublar. 24-cü dəqiqədə Yevgeni Koçuk Tural Axundova qarşı kobudluğa görə təyin olunmuş penaltini dəqiq yerinə yetirib. Bundan 5 dəqiqə sonra Fəhmin Muradbəyli fərdi ustalığı sahəsində üç müdafiəçini keçərək hesab arasındakı fərqi iki topa çatdırıb.

İkinci hissədə isə qonaqlar üstün tərəf olublar. Buna 49-cu dəqiqədə Koçukun ikinci sarı vərəqədən sonra azlıqda qalması da təsirsiz ötüşməyib. “Keşlə”nin təsəlli qolunu 90+2-ci dəqiqədə Denis Silva vurub.

Beləliklə, rəqibinə ilk dövrədəki hesabla qalib gələn “Səbail” xallarını 16-ya çatdırıb və “Sabah”la 3-4-cü yerləri bölüşür. Beş xala malik “Keşlə” isə 7-ci pillədə qərarlaşıb.

9-cu turun son oyunu “Neftçi” və “Qarabağ” komandaları arasında oynanılıb. “Bakcell Arena”da keçirilən oyunda hesabı paytaxt təmsilçiləri açıblar. Belə ki, Dario Federikonun cinah ötürməsi zamanı top ağdamlıların müdafiəçisi Abbas Hüseynovun ayağına dəyərək qapıdan keçib - 1:0. Daha sonra “Neftçi” qarşılaşmanın 25-ci dəqiqəsində hesab arasındakı fərqi iki topa çatdırıb. Mirabdullah Abbasov oyunda yenidən məhsuldar ötürmə ilə yadda qalan Dario Federikonun ötürməsini qola çevirib - 2:0. Komandalar fasiləyə “flaqman”nın 2:0 hesablı üstünlüyü ilə yollanıb.

İkinci hissədə əks hücumlara bel bağlayan “Neftçi” matçın sonlarında - 84-cü dəqiqədə qapısında qol görüb. Mahir Mədətov adını tabloya yazdırıb - 1:2. Bu da oyunda son qol olmayıb. Emil Mahmudov cinahda Rəşad Sadıqovu keçərək çempionatın bombardiri Baqali Daboya ötürmə verib, sonuncu fürsəti əldən qaçırmayıb. Beləliklə, görüş “Neftçi” klubunun 3:1 hesablı qələbəsi ilə başa çatıb. Bu qələbədən sonra “Neftçi” xalların sayını 21-ə çatdıraraq turnir cədvəlində birinci yerdəki mövqeyini qoruyub.

## “Qarabağ” “Vorskla” ilə də bacarmadı

***UEFA Avropa Liqasının III turu çərçivəsində Ağdamın “Qarabağ” komandası Bakı Olimpiya Stadionunda Ukraynanın “Vorskla” klubu ilə qarşılaşıb. Oyun qonaqların qələbəsi ilə başa çatıb.***

Qarşılaşmanın 48-ci dəqiqəsində “Vorskla”nın 10 nömrəli oyunçusu Vladislav Kulaç topu “Qarabağ”ın qapısından keçirib - 0:1.

“Qarabağ”ın futbolçuları bir neçə dəfə hesabı bərabərləşdirməyə yaxın olsalar da, bu imkanlardan istifadə edə bilməyiblər.

Qrupda keçirilən digər oyunda isə “Sportinq” öz meydanında “Arsenal”a 0:1 hesabı ilə məğlub olub.

Turun gözlənilməz hesabı Türkiyədə qeydə alınıb. “İ” qrupunda yer alan “Beşiktaş” doğma meydanda Belçikanın “Genk” klubuna 2:4 hesabı ilə uduzub. Qrupun digər oyununda “Malmö” səfərdə “Sarpsborg 08”lə 1:1 hesabı ilə heç-heçə edib.

Digər Türkiyə təmsilçisi “Fənərbağça” isə səfərdə Belçikanın “Anderlext” klubu ilə heç-heçə edib (2:2). “D” qrupunun digər oyununda “Spartak Trnava” doğma meydanda “Dinamo Zaqreb”ə uduzub (1:2).

İspaniyanın “Sevilya” klubu Türkiyənin digər təmsilçisi “Akhisarspor”u 6:0 hesabı ilə darmadağın edib.

Azərbaycan milli komandasının futbolçusu Riçard Almeydanın çıxış etdiyi “Astana” klubu səfərdə Çexiyanın “Yablonets” komandası ilə heç-heçə edib - 1:1.

Turun digər oyunlarında aşağıdakı nəticələr qeydə alınıb:

**“A” qrupu**

AEK (Kipr) - “Lüdoqorets” (Bolqarıstan) - 1:1

Sürix” (İsveçrə) - “Bayer” (Almaniya) - 3:2

**“B” qrupu**

“Leyptsiq” (Almaniya) - “Seltik” (Şotlandiya) - 2:0

“Zaltsburq” (Avstriya) - “Rusenborq” (Norveç) - 3:0

**“C” qrupu**

“Kopenhagen” (Danimarka) - ”Slaviya” (Çexiya) - 0:1

“Düdelanj” (Lüksemburq) - “Olimpiakos” (Yunanıstan) - 0:2

**“G” qrupu**

“Reyncers” (Şotlandiya) - “Spartak” (Rusiya) - 0:0

“Vilyarreal” (İspaniya) - “Rapid” (Avstriya) - 5:0

**“H” qrupu**

“Ayntraxt” (Almaniya) - “Apollon” (Kipr) - 2:0

“Marsel” (Fransa) - “Latsio” (İtaliya) - 1:3



“Zenit” (Rusiya) - “Bordo” (Fransa) - 2:1

**“E” qrupu**

“Qarabağ” (Azərbaycan) - “Vorskla” (Ukrayna) - 0:1

“Sportinq” (Portuqaliya) - “Arsenal” (İngiltərə) - 0:1

**“F” qrupu**

“Milan” (İtaliya) - “Betis” (İspaniya) - 1:2

**“J” qrupu**

“Standard” (Belçika) - “Krasnodar” (Rusiya) - 2:1

**“K” qrupu**

“Renn” (Fransa) - “Dinamo” (Ukrayna) - 1:2

**“L” qrupu**

Çelsi” (İngiltərə) - BATE (Belarus) - 3:1

PAOK (Yunanıstan) - “Videoton” (Macarıstan) - 0:2

## *UEFA Çempionlar Liqasının üçüncü turuna yekun vurulub*

UEFA Çempionlar Liqasının üçüncü turunun oyunları keçirilib.

Turun mərkəzi qarşılaşması “Old Traford” stadionunda oynanılıb. “H” qrupunda yer alan İngiltərənin “Mançester Yunayted” klubu doğma meydanda İtaliyanın “Yuventus” komandasını qəbul edib. Görüş “qoca sinyora”nın 0:1 hesablı qələbəsi ilə başa çatıb. Matçda yeganə qolu 17-ci dəqiqədə turinlilərin argentinalı hücumçusu Paolo Dibala vurub.

Qrupun digər oyununda İspaniyanın “Valensiya” klubu səfərdə İsveçrənin “Yanq Boyz” komandasının qonağı olub. Görüş 1:1 hesabı ilə başa çatıb. Meydan sahiblərinin heyətində Qoran Hoarau, qonaqlarda isə Mişi Batşuayi fərqləniblər. Üç turdan sonra “H” qrupuna 9 xalla “Roma” başçılıq edir. Dörd xalı olan “Mançester Yunayted” ikinci, “Valensiya” iki xalla üçüncü, bir xalı olan “Yanq Boyz” isə dördüncü yerdədir.

Bu turnirin son qalibi İspaniyanın “Real Madrid” klubu “Santyaqo Bernabeu” stadionunda Çexiyanın “Viktoriya Plzen” komandasını qəbul edib. Kərim Benzemanın və Marselonun qollarına qonaqlar Patrik Hrosovskinin qolu ilə cavab verib. Görüş “kral” klubu komandasının 2:1 hesablı qələbəsi ilə yekunlaşıb.

“G” qrupun digər oyununda Rusiyanın ÇSKA klubu səfərdə “Roma”ya böyük hesabla məğlub olub (3:0). İtaliya təmsiçlisinin heyətində Edin Ceko (2) və Cengiz Ünder fərqlənib.

Üç turdan sonra “G” qrupuna 6 xalla “Roma” və “Real Madrid” klubları başçılıq edir. Dörd xalla ÇSKA üçüncü, aktivində bir xal olan “Viktoriya Plzen” sonuncudur.

“E” qrupunda yer alan Yunanıstanın AEK klubu doğma meydanda Almaniyanın “Bavariya” komandasını qəbul edib. Qarşılaşmanın ikinci hissəsində almanlar hesabı açmağa nail olub. Matçın 61-ci dəqiqəsində Xavyer Martinez adını tabloya yazdırıb - 0:1. Qoldan iki dəqiqə sonra Robert Levandovski “Bavariya”ya qələbə qazandırıb.

“Ayaks” (Hollandiya) və “Benfika” (Portuqaliya) oyununda isə meydan sahiblərinin minimal hesablı qələbəsi qeydə alınıb.

Üç turdan sonra birinci pillədə aktivlərində 7 xalı olan “Bavariya” və “Ayaks” klubları qərarlaşıb. “Benfika” 4 xalla üçüncü yerdədir. Sonuncu pillədə yer alan AEK-in isə aktivində xal yoxdur.



İngiltərə çempionu “Mançester Siti” səfərdə Ukraynanın “Şaxtyor Donetsk” klubunu 3:0 hesabı ilə məğlub edib. “Şəhərlilər”in heyətində David Silva, Aymerik Laport və Bernardo Silva fərqləniblər. “F” qrupunun ikinci oyununda isə Fransanın “Lion” klubu səfərdə Almaniyanın “Hoffenhaym” komandası ilə heç-heçə edib (3:3).

Üç turdan sonra “F” qrupuna 6 xalla “Mançester Siti” klubu başçılıq edir. 5 xal toplayan “Lion” ikinci, aktivlərində iki xal olan “Hoffenhaym” və “Şaxtyor Donetsk” üçüncü, dördüncü yerləri bölüşürlər.

UEFA Çempionlar Liqasının ikinci oyun günündə də azarkeşlər bir-birindən maraqlı və gərgin oyunların şahidi olublar. Turun maraq doğuran qarşılaşması “Nou Kamp” stadionunda keçirilib. İspaniya çempionu “Barselona” İtaliyanın “İnter” klubunu qəbul edib. Oyunda hesab 32-ci dəqiqədə açılıb. Luis Suarezin ötürməsini Rafinya dəqiq zərbə ilə tamamlayıb - 1:0.

Fasilədən sonra ispanlar hesab arasındakı fərqi iki topa çatdırıblar. İvan Rakitiçin məhsuldar ötürməsindən sonra Jordi Alba topu qapıdan keçirdib. Bu oyunda son qol olub.

Qrupun digər oyununda İngiltərənin “Tottenhem” klubu səfərdə Hollandiyanın PSV klubunun qonağı olub. Qarşılaşma 2:2 hesabı ilə başa çatıb. Üç turdan sonra “Barselona” klubu 9 xalla “B” qrupunun vahid lideridir. Aktivində 6 xalı olan “İnter” ikinci sırada qərarlaşıb. “Tottenhem” və PSV klubları hərəyə 1 xalla üçüncü, dördüncü yerləri bölüşürlər.

Turun digər maraq doğuran oyunu Fransada keçirilib. PSJ İtaliyanın “Napoli” klubunu qəbul edib. Qarşılaşmanın favoriti fransızlar sayılsa da, hesabı qonaqlar açıb. PSJ komandası qarşılaşmanın 61-ci dəqiqəsində hesaba tarazlıq gətirib. Fransızların hücumu zamanı top “Napoli” komandasının oyunçusuna dəyərək (Mario Rui) qapıdan keçib - 1:1. Qoldan on altı dəqiqə sonra neapollular yenidən hesabda irəli keçib. Dris Mertens adını tabloya yazdırıb - 1:2. Bu da oyunda son qol olmayıb. Oyunun əsas vaxtına əlavə olunmuş üçüncü dəqiqədə fərqlənərək hesabı bərabərləşdirib - 2:2. Qalan dəqiqələrdə hər iki komandaların cəhdlərinə baxmayaraq, hesab dəyişilməyib.

Qrupun digər oyununda isə “Liverpul” doğma azarkeşlər önündə “Srvena Zvezda”nı məğlub edib -4:0. “Mersisaydlılar”ın heyətində Roberto Firminyo, Məhəmməd Salah (2) və Sadio Mane fərqləniblər.

3 turdan sonra “Liverpul” 6 xalla birinci pillədə qərarlaşıb. Aktivində 5 xalı olan “Napoli” ikinci, 4 xala malik PSJ isə üçüncü pillədə yer alıb. “Srvena Zvezda” isə 1 xalla qrupun sonuncusudur.

“A” qrupunun ilk oyunu Belçikada keçirilib. “Brügge” doğma meydanda “Monako” (Fransa) klubunu qəbul edib. Görüş 1:1 hesabı ilə başa çatıb. Bu il oyunu ilə azarkeşlərin qəlbini fəth edən “Borusiya Dortmund” isə öz meydanında İspaniyanın Madrid “Atletiko”sunu qəbul edib. Görüş “bundestim” təmsilçisinin 4:0 hesablı qələbəsi ilə yekunlaşıb. Almanlar bu qələbə ilə 9 xalla qrupun vahid liderinə çevriliblər. Aktivində 6 xalı olan “Atletiko Madrid” ikinci sırada qərarlaşıb. “Monako” və “Brügge” komandaları isə hərəyə 1 xalla üçüncü, dördüncü yerləri bölüşürlər.

Çempionlar Liqasının “D” qrupunda qərarlaşan komandaların oyunu da maraqla gözlənilən matçlardan olub. Belə ki, Türkiyənin “Qalatasaray” klubu doğma meydanda Almaniyanın “Şalke” klubunu qəbul edib. Tərəflərin çoxsaylı hücum şanslarına baxmayaraq matçda hesab açılmayıb. Qrupun digər oyununda isə Rusiya təmsilçisi “Lokomotiv” doğma azarkeşlər önündə “Portu”ya (Portuqaliya) məğlub olub -1:3. Bu oyunlardan sonra 7 xal toplayan “Portu” qrupa başçılıq edir. “Şalke” klubu 5 xalla ikinci, “Qalatasaray” isə 4 xalla üçüncüdür. Aktivində xal olmayan “Lokomotiv” isə sonuncu pillədə qərarlaşıb.



## *Böyükhesablı məğlubiyyət baş məşqçinin qovulması ilə nəticələndi*

Oktyabrın 28-də İspaniya La Liqasının 10-cu turu çərçivəsində “Barselona” ilə “Real Madrid” klubları qarşılaşıb. “El Klasiko” adlandırılan bu matç son 11 ildə ilk dəfə Lionel Messi və Kriştianu Ronaldo olmadan keçirilib. Argentinalı zədəli, portuqaliyalı isə bu mövsümdə “Yuventus”a transfer olunub.

Oyunda hesabı meydan sahibləri açıblar. Əks hücum zamanı Jordi Albanın cinah ötürməsini Koutinyo dəqiq zərbə ilə tamamlayıb - 1:0. Qarşılaşmanın 30-cu dəqiqəsində Madrid təmsilçisi cərimə meydançasının daxilində Luis Suaresa qarşı qaydanı pozub. Oyunun baş hakimi VAR sistemindən istifadə edərək 11 metrlik cərimə zərbəsi təyin edib. Zərər çəkən penaltini özü yerinə yetirərək hesabı artırıb - 2:0.

177-ci “El Klasiko”nun ikinci hissəsində dərhal sonra hücuma atılan “kral klubu” 50-ci dəqiqədə qollardan birinin əvəzini çıxıb. Marselo cinah ötürməsini dəqiq ram edərək qapıya qüvvətli zərbə endirib - 2:1. Matçın 75-ci dəqiqəsində kataloniyalılar yenidən fərqlənib. Luis Suares adını tabloya yazdıraraq komandasının üçüncü qolunu vurub - 3:1. Qarşılaşmanın başa çatmasına səkkiz dəqiqə qalmış Luis Suares “het-trik”in rəsmiləşdirib - 4:1. Matçda son nöqtəni isə 87-ci dəqiqədə oyuna yenicə daxil olmuş Arturo Vidal qoyub - 5:1.

Bu qələbədən sonra “Barselona” xallarının sayını 21-ə çatdıraraq turnir cədvəlində birinci pillədəki yerini qoruyub. “Real Madrid” isə 14 xalla 9-cu yerdədir.

Xatırladaq ki, son yüz ildə bu iki komanda rəsmi turnirlərdə 237 dəfə üz-üzə gəlib. Bu oyunların 95-də “Real Madrid”, 93-də isə “Barselona” qələbə qazanıb. Vurulan qolların nisbəti də “Kral klubu”nun xeyrinədir - 401:387.

Oyundan sonra İspaniyanın “Real Madrid” klubunun baş məşqçisi Xulyen Lopeteqi istefaya göndərilib. “Kral klubu”nun prezidenti Florentino Peres komandanın yeni baş məşqçisinin adını açıqlayıb. Bu İngiltərənin “Çelsi” komandasının sabiq çalışdırıcısı Antonio Kontedir.

DÜNYA  İDMANI

## İdman tarixində ən bahalı müqavilə imzalandı

Meksikalı boksçu Saul Alvares DAZN striminq xidməti ilə müqavilə bağlayıb.

28 yaşlı idmançının imza atdığı müqavilənin dəyəri 365 milyon dollardır.

Müqavilənin şərtlərinə əsasən, Alvares 2023-cü ilədək 11 döyüşə çıxmalı olacaq.

Meksikalı boksçunun müqaviləsi idman tarixində ən bahalı kontrakt olub.

Qeyd edək ki, bu vaxtadək amerikalı beysbolçu Cankarlo Stentonun 2014-cü ildə "Mayami Marlins"lə imzaladığı müqavilə ən bahalı sayılırdı. Bu müqavilə əsasında Stenton 13 il müddətində 325 milyon dollar qazanmalıdır.

## NBA-da dava

Milli Basketbol Assosasiyasında (NBA) mövsümün qalibi adına iki real namizəd - "Los Anceles Leykers" və "Hyuston Rokets" arasında keçirilən matç qalmaqalla yadda qalıb.

Qarşıdurma komandalar arasındakı fərq 1 xala enən zaman baş verib. Lakin kənar şəxslərin meydana çıxması davanın daha geniş miqyas almasının qabağını alıb.

Görüşdə isə 124:115 hesabı ilə Hyuston komandası qalib gəlib.

## Fernando Alonso Formula-1-dən niyə gedir?

"Maklaren" komandasının pilotu Fernando Alonso bildirib ki, çoxları mövsümün sonunda onun Formula-1 ilə vidalaşmasının səbəbini 2019-cu il mövsümündə rəqabətədavamlı bolidin yoxluğu ilə əlaqələndirirlər, amma bu, belə deyil.

Fernando Alonso deyib: "Əslində, gələn il rəqabətədavamlı maşın əldə edə bilərdim. Mən buna görə getmirəm. Bunu avqust ayından deyirəm. Mən gedirəm, çünki Formula-1-də bütün istəklərimə nail oldum.

Mən Formula-1-ə gəldim, Qran-Prinin qalibi oldum, bir çox rekordları təzələdim. Mən "Maklaren", "Reno", "Ferrari" uğrunda mübarizə apardım. 37 yaşım var və mən daha Formula-1-də iştirak etmək istəmirəm. Formula-1 ilə bağlı arzularımın hamısı həyata keçdi. Avtomobil idmanında Formula-1-dən daha cəlbedici yeni istiqamətlər var.

Mən gedirəm, çünki düşünürəm ki, Formula-1-in hüdudlarından kənarda daha yaxşı yürüşçü, daha rəqabətədavamlı pilot ola bilərəm. Zənnimcə, həyatımın bu fəsli böyük uğurla başa çatıb. Ola bilsin, qalib gəlmək istədiyim başqa seriyalar var. Mən avtomobil idmanının digər sahələrində müvəffəqiyyət qazana bilməmişəm. Odur ki, bunu etməyə çalışacağam".

## 4 oyuna 85 qol

"Benfika" klubunun qadın futbolçulardan ibarət komandası Portuqaliya divizionunda cari mövsüm ikinci dəfə 28:0 hesablı qələbə qazanıb. Divizionun dördüncü turunda "Benfika" komandası "Almeyrin"i böyük hesabla məğlub edib. Yarışın ilk dörd matçında baş məşqçi Joze Markesin yetirmələri 28:0, 19:0, 10:0 və 28:0 hesabı ilə qalib gəliblər.

Komanda turnir cədvəlində 12 xalla və 85 qolla birinci pillədə qərarlaşıb.

## Bob Marlinin şəkli futbol formasının üzərində

Futbol üzrə İrlandiya Premyer Liqasında çıxış edən "Bohemians" klubu 2019-cu il mövsümü üçün yeni formasını ictimaiyyətə təqdim edib.

Formanın üzərində məşhur yamaykalı müğənni Bob Marlinin şəkli və Rastaman hərəkatının ənənəvi rəngləri (qırmızı, sarı və yaşıl) yer alıb.

"Bohemians" Premyer Liqanın sonuna bir tur qalmış turnir cədvəlində beşinci pillədə qərarlaşıb.

## Məşhur futbolçunun heykəli qoyulacaq

İspaniya yığmasının və "Barselona" klubunun keçmiş yarımmüdafiəçisi, hazırda Yaponiyanın "Vissel Kobe" klubunun heyətində çıxış edən Andres İnyestanın şərəfinə onun anadan olduğu Albasete əyalətində heykəl qoyulacaq.

Albasete şəhərinin meri deyib: "İnyesta Albasete cəmiyyətinin dəyərlərini - təvazökarlığı, sadəliyi və çalışqanlığı təcəssüm etdirir".

Heykəli 2020-ci il üçün təqdim etmək planlaşdırılır. O, Albasete şəhərinin "Abelardo Sançes" parkında qoyulacaq.

Maraqlıdır ki, bir neçə il əvvəl İnyestanın doğma Fuentealbilyo kəndində də onun heykəli qoyulub.

## Adları tarixə düşəcək tennisçilər

Beynəlxalq Qadın Tennis Assosiyasının (WTA) icraçı direktoru Stiv Saymon hazırkı tennis ulduzları və Sinqapur açıq çempionatının nəticələri barədə bəzi fikirlər səsləndirib.

"Düşünürəm ki, WTA indiki kimi heç vaxt belə güclü olmayıb. Ötən illə müqayisədə qadın tennisinə tamaşaçı marağı 20 faiz artıb. Turda ilk planda Halep, Voznyatski, Kerber və Stivens fəaldırlar. Sonra adları tennis tarixinə düşəcək Serena, Venus və Mariya Şarapova gəlir. Məhz onların sayəsində mövsüm çox maraqlıdır", - deyə Stiv Saymon bildirib.

İcraçı direktor məşqçi məsələsinə də toxunub. O, bildirib ki, məşqçinin yarış zamanı korta çıxıb-çıxmaması məsələsi hələ müzakirə olunur. Saymonun sözlərinə görə, yaxınlarda bu məsələnin həllinə baxılacaq.



## Məşhur şahmatçıya FİDE rəhbərliyində iş təklif olunub



Moldovalı şahmatçı və biznesmen Viorel Boloqan Beynəlxalq Şahmat Federasiyasının (FİDE) rəhbər heyətinə daxil olacaq.

FİDE-nin prezidenti və Rusiyanın Baş nazirinin keçmiş müavini Arkadi Dvorkoviç Boloqana FİDE-nin icraçı direktoru (CEO) olmağı təklif edib. Bundan əvvəl Moldova Şahmat Federasiyası Gürcüstanın Batumi şəhərində FİDE-nin prezidenti seçkilərində Dvorkoviçin namizədliyini dəstəkləmişdi.

Viorel Boloqan Moldova Şahmat Federasiyasının prezidenti, ölkədə şahmatın inkişafı ilə fəal məşğul olan İqor Dodon ilə görüşərək Moldovada şahmatın inkişafı məsələlərini müzakirə edib.

İqor Dodon həmin görüşün yekunları barədə özünün "feysbuk" səhifəsində yazıb:

- Məlum olduğu kimi, bu təşkilatın yeni prezidenti vəzifəsinə Rusiya nümayəndəsi, Baş nazirin keçmiş müavini Arkadi Dvorkoviç seçilib. Onun namizədliyini Moldova Respublikası da dəstəkləyib. Cənab Dvorkoviç də öz tərəfindən, Viorel Boloqanı komandasına dəvət edib və ona FİDE-nin icraçı direktoru (CEO) vəzifəsini təklif edib. Bu təyinat Beynəlxalq Şahmat Federasiyasının Prezident Şurasının noyabrın 8-9-da Londonda keçiriləcək iclasında təsdiq edilməlidir.

Viorel Boloqan İqor Dodona bildirib ki, Moldova Şahmat Federasiyasının prezidenti kimi onu FİDE-nin 1.8 nömrəli zonasının rəhbəri seçiblər. Bu zonaya Azərbaycan, Moldova və Belarus daxildir.

Əslən Kişinyovdan olan 46 yaşlı Viorel Boloqan 1991-ci ildə qrossmeyster olub, 2001-ci ildə FİDE-nin reytinqində 19-cu yeri tutub.

## Avstriyalı idmançıdan yeni dünya rekordu

Avstriyalı ekstremal idmançı Mixael Ştrasser yeni dünya rekordu müəyyənləşdirib. Alyaskadan Pataqoniyaya qədər 22 min 642 kilometrlik məsafəni velosipedlə 84 günə qət edən idmançı "Ice2Ice"layihəsini uğurla başa vurub.

Vətəni Avstriyada böyük coşqu ilə qarşılanan idmançı bu məsafəni əvvəlki rekordun sahibi şotlandiyalı Dean Skottdan 15 gün tez başa vurub. Amerika qitəsini şimaldan cənubadək velosipedlə qət edən M.Ştrasser yürüş ərzində ümumi hündürlüyü 168 min metr olan yüksəklikləri aşıb.



Otuz beş yaşlı idmançı yürüşə Argentinanın cənubunda yerləşən Uşuaya şəhərində yekun vurub. Turun sonuna yaxın ekstremal hava şəraiti, çovğun, əks istiqamətdən əsən güclü külək, yüksəklikdən asılı olaraq isti və soyuq havanın bir-birini əvəzləməsi onu taqətdən salsa da, güclü əzmkarlığı yeni dünya rekordunu müəyyən etməyə imkan verib.

Gün ərzində orta hesabla 268 kilometr məsafə qət edən idmançı bu layihə çərçivəsində 35 min avro məbləğində ianə də toplaya bilib. M.Ştrasser bu vəsaiti amiotrofik lateral skleroz (ALS) xəstələrini müalicə edən tibbi mərkəzlərə hədiyyə edəcək.

## "Floyd Həbibi döyəcək"

Amerikalı MMA döyüşçüsü Deniel Kormye rusiyalı idmançı Həbib Nurməhəmmədovla amerikalı boksçu Floyd Meyvezer arasında mümkün döyüşə münasibətini açıqlayıb.

Həbibin komanda yoldaşı olan Kormye bu döyüşü ağılsızlıq adlandırıb. O, rusiyalı idmançıya döyüşdə iştirak etməməyi məsləhət görüb.

"Bəli, biz eyni komandadayıq. Lakin Floyd onu döyəcək. Həbib isə tərs adam olduğu üçün təslim olmayacaq. Ona görə də onu 12 raund döyəcəklər. Buna dözmək isə pisdir", - deyə o, vurğulayıb.

UFC rəhbəri Deyna Uayt isə döyüş haqqında söz-söhbətlərə önəm verməməyə çağırıb.

Qeyd edək ki, Kormye iki çəki dərəcəsində MMA çempionudur.






## *Makqreqoru Dağıstana dəvət etdilər*

UFC çempionu Həbib Nurməhəmmədovun atası Əbdülmanaf Nurməhəmmədov Konor Makqreqoru Dağıstana - oğlunun evinə dəvət edib.

Bunu ata Nurməhəmmədov "Facebook"da canlı yayım zamanı deyib: "Hər şeyi bağışlayıram. Ürəyi yumşaq olmaq lazımdır".

Həmçinin böyük Nurməhəmmədov Makqreqoru Dağıstanda keçiriləcək peşəkar döyüş sambosu üzrə dünya çempionatına dəvət edib. Bu yarış dekabrın 15-də Dağıstanın Kaspiysk şəhərində təşkil olunacaq. Əbdülmanaf bildirib ki, onu həmin yarışda fəxri qonaq qismində görməkdən şad olarlar.

Məlumat üçün bildirək ki, Həbib Nurməhəmmədov və irlandiyalı Konor Makqreqorun diskvalifikasiya müddəti uzadılıb. ABŞ-ın Nevada ştatının atletika komissiyası adıçəkilən şəxslər barədə yekun qərarı dekabrın 10-da qəbul edəcək.

Olimpiya dünyası

Baş redaktorun müavini: A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-90-54; 564-74-19